# Şiə məzhəbinin İslam və müsəlmanlar haqqındakı inanc əsasları

## 1. On iki imamın vilayətinə etiqad və ona inanmayanların təkfir edilməsi.

Həqiqətən, şiəlik yəhudilikdən çoxlu miraslar almışdır və bu adi sözlər deyil.Axı, yəhudilərdən başqa kim digər millətlərə,dinlərə və irqlərə belə kinlə yanaşır?
Şiələr imamətin dinin əsasından olduğuna və Peyğəmbər (s.a.s)-in 12 imamı nassla təyin etdiyinə etiqad edirlər.İlk öncə vilayətin dəyəri haqqında onların rəvayyətlərinə nəzər salaq.Mühəddis və alimləri bu məşhur rəvayyəti nəql edirlər:

**“İslam Allahdan başqa ilah yoxdur,Muhəmməd onun elçisidir şəhadət kəlməsi,namaz qılmaq,zəkat vermək,Ramazanda oruc tutmaq,həcc etmək və Əli ibn Əbu Talibin vilayətinə iman etməkdən ibarətdir.”** (“Kafi” 2/18,21,22,32; Şeyx Səduq səh 221,279,510; “Rical Kəşşi” səh 356; “Təfsir Əyyaşi” 2/117; Tusi 4/151; “Biharul ənvar” 10/393, 23/69, 27/103; Mufid səh 209; “Vəsailuş şia” 1/13; Təbərsi 1/71 və s.)
Göründüyü kimi bu rəvayyət şiə kitablarında mütəvatirdir.Heç bir Əhli Sünnə mənsubu Əli (r.a)-nin vilayətini dinin əsası kimi qəbul etmir.Yəni,Əhli Sünnə şiələrə görə İslamın əsaslarından birini inkar edir.

Kuleyni Zürarədən rəvayyət edir ki,imam Əbu Cəfər demişdir: "**Islam beş şey üzərində bina olmuşdur: Namaz, zəkat, həcc, oruc və vilayət".Zurarə soruşmuşdur: "Bunlardan hansı daha üstündür?" O demişdir: "Vilayət"** (“Kafi" 2/18;Tehran;“Biharul ənvar” 68/332; “Vəsailuş şia”1/13 və s)

İmam Rzadan nəql edirlər ki,o demişdir: **“Vilayət bütün peyğəmbərlərin kitablarında yazılmışdır.”** (“Kafi” 1/437; ”Biharul ənvar” 11/60; Şeyx Tusi “Əməli” səh 681)

İndi isə şiələrin inanclarını paylaşmayanlar haqqında nə düşündüyünə nəzər yetirək:
İlk öncə onların imamlarının sözlərini qeyd edək.
Muhəmməd ibn İbrahim ən Numani “Qeybə ən Numani” kitabında imam Cəfərdən rəvayyət edir: **“Hər kim Allah tərəfindən təyin olunmamış imamı Allah tərəfindən təyin olunmuş imama tay görərsə,o müşrikdir.”** (“Qeybə ən Numani” fəsil 7; hədis 8)
İbn Babaveyh əl Qummi (Şeyx Səduq) “Əməli” kitabında Peyğəmbər (s.a.s)-dən belə bir hədis rəvayyət edir: **“Məndən sonra kim Əliyə qarşı olarsa o kafirdir və kim ona şərik qoşarsa o müşrikdir.”** (fəsil 3,səh 19,hədis 6)
Yəni,şiələrə görə kim idarə etmədə,xilafətdə Əli (r.a) ilə yanaşı başqasını hakim görərsə,o müşrikdir.

İbn Babaveyh həmçinin, Peyğəmbər (s.a.s)-dən rəvayyət edir: **“Məndən sonra hər kim Əlinin imamətini inkar edərsə,sanki mənim sağlığımda peyğəmbərliyimi inkar etmiş kimidir və hər kim ki,mənim peyğəmbərliyimi inkar edərsə,o Allahı inkar etmiş kimidir.”** (“Əməli” səh 656,hədis 5)

Kuleyni “Kafi” kitabında imamdan hədis rəvayyət edərək yazır: **“İmam dedi: “Məhşər günü Allah onlarla danışmayacaq,onları təmizləməyəcək və onlara şiddətli əzab vardır.”Bunu üç dəfə söylədi.Daha sonra buyurdu: “Bu o kimsələrdir ki,imam olmadığı halda Allahın iradəsi ilə imam olduqlarını söyləyir və ilahi əmrlə təyin olunmuş imamı inkar edirlər.<u>Onlar o kimsələrdir ki,bu iki nəfərin İslamda nəsibi olduqlarını düşünürlər.”</u>** (“Kafi” 1/373)

Bu hədisi Behbudi səhih hesab etmişdir. Şiələrin “Əbu Bəkr və Ömərə olan məhəbbətlərini” nəzərə alaraq,bu iki nəfərin kim olduğunu təxmin etmək çətin deyil.

Kuleyni Əbu Cəfərdən rəvayyət edir: **“İmama iman etməyənin ölümü küfr və münafiq ölümüdür.”** (“Kafi” 1/375)
Məclisi və Behbudiyə görə hədis səhihdir.

Zarihin nəql etdiyinə görə o Əbu Abdullahdan Peyğəmbər (s.a.s)-dən sonra olan imamlar baradə soruşur.İmam cavabında deyir: **“İlk öncə imam möminlərin əmiri Əli ibn Əbu Talib idi.Sonra Həsən,Hüseyn,sonra Muhəmməd ibn Əli oldu və <u>kim bunu inkar etsə Allahı və onu peyğəmbərini inkar etmiş olar.</u>”** (“Kafi” səh 295,hədis 465)

Kuleyni Əbu Cəfərdən rəvayyət edir: **“İmama iman etməyənin ölümü küfr və münafiq ölümüdür.”** (“Kafi” 1/375)
Məclisi və Behbudiyə görə hədis səhihdir.

Biz “zavallı” müsəlmanlar isə hesab edirik ki,bu ümmətin ilk xəlifəsi Əbu Bəkr (r.a),sonra Ömər (r.a),sonra Osman (r.a),sonra isə Əli ibn Əbu Talib (r.a) olmuşdur.Bu rəvayyətlərə görə biz onsuzda Allah və onun elçisini inkar etmiş kimiyik!

Kuleyni rəvayyət edir: **“Abdullah ibn Yəfur nəql edir ki, bir dəfə mən Əbu Abdullaha dedim: “Mən adamlarla ünsiyyətdə olanda sizinlə deyil,filan-filan adamlarla yaxınlıq edən bəzi adamlarda etibar,doğruculluq,vəfa olduğuna,sizinlə yaxınlıq edən bəzi adamlarda isə bunların olmadığına çox təəccüblənirəm.” Bunu eşidən Əbu Abdullah qəzəblə mənim üzümə baxıb dedi: “Allahdan gəlməyən imama yaxınlıq etməklə Allaha inanan adamın dini yoxdur.”** (“Kafi” c.1, səh 237, Hindistan çapı)

Numani imam Cəfərdən imamın birini qəbul edib,digərini inkar edən bir adam haqqında demişdir: **“Onun misli İsa (ə)-nı qəbul edib,Muhəmməd (s.a.s)-i inkar edən vəya Muhəmməd (s.a.s)-i qəbul edib,İsa (ə)-nı inkar etmiş kimidir.”** (“Qeybə ən Numani” fəsil 5; hədis 4)

Bu rəvayyət guya bizləri küfrdə ittiham etmədikləri bəhanələrini heçə endirir.Biz axı Əli (r.a)-ni yalnız dördüncü xəlifə olaraq,qəbul edirik.Əhli Sünnədən heç kəs Əlidən sonra yalnız onun nəslinin hakim olmalı olduğunu iddia etmir.Bundan əlavə biz nəinki,12-ci imamı qəbul etmir,ümumiyyətlə onun mövcud olmadığını bilirik.
Onlar Əbu Cəfərdən nəql edirlər: **"Kim Allahı və biz Əhli beyti tanımazsa,o Allahdan qeyrisinə ibadət etmiş sayılır."** ("Kafi" c.1,səh 294,hədis 464)

Həmçinin, Əbu Abdullahdan: **"Kim bizi təsdiq etsə mömin,kim bizi inkar etsə kafirdir."** ("Kafi" c.1,səh 305,hədis 485)

Seyyid Şübbar İmam Rzadan rəvayyət edir: **"İslamda bizdən və bizim şiələrdən başqası yoxdur."** ("Şərhul ziyarətul camiə" səh 26)

Kuleyni bu sözləri imama isnad edir: **"İnsanlar üç qismə bölünür: Alimlər,öyrənən tələbələr və artıqlar.Biz Əhli beyt imamları alimlərik,bizim şiələr tələbələr,digər artıq insanlar isə zibildirlər."** ("Kafi" c.1,səh 51-52,hədis 4 (56)
http://www.al-shia.org/html/ara/books/lib-hadis/al-kafi-1/02.htm#02

İmam bu sözlərdən uzaqdır! Yəhudilər kimi dünyanı özünkülərə və əcnəbilərə ayırmaq yalnız etiqadlarını yalandan imamlara isnad edən rafizilərə xasdır.
Baxaq görək onların alimləri nə deyir: "Şiəlik baxımından əqidəvi məsələlər" kitabında Rza Müzəffər yazır:
**"Hər kim ki,müctəhidi qəbul etmir və ya inkar edir,dolayısı ilə imamı və Allahı da qəbul etməyib inkar etmiş olur.Bu imam Sadiqin sözlərinə görə şirkə bərabər vəya Allahın təkliyini inkar etmək kimidir."**("Müctəhidlər" fəsili)

Seyyid Şübbar yazır: **"Sizi və sizin imaməti inkar edənlər kafirdirlər.İmamlara müxalif olanların (yəni, Əhli Sünnənin) küfrünə dəlalət edən rəvayyətlər və xəbərlər mövcüddur.Onları cəm etmək üçün müstəqil bir kitaba ehtiyyac vardır. Müxaliflərin küfrünə hökm verən xəbərləri və imamların onlarla rəftarını vəsf edən rəvayyətləri cəm etsək, zəruri olaraq deməliyik ki, imaların**

**müxalifləri kafirdilər və axirətdə cəhənnəmdə olacaqlar"** ("Camiə kəbirə ziyarətinin şərhi" səh 124-125, Azərbaycan dilində)
Bu kitabda (111-ci səhifədə) müəllif Həsən əl Bəsri və onun ardıcıllarını şiələrə müxalif olanlardan hesab edir.
Ayətullah Şübbar yazır: **"Əgər tövhidə etiqad vilayətə etiqad ilə birgə olmasa Allah Təalə onu heç kəsdən qəbul etməz. Xəbərlərin bəzilərində varid olmuşdur ki, imamların müxalifləri (yəni Əhli Sünnə) müşrikdirlər. Qiyamət günü tövhid kəlməsi, imamların ardinca getməyənlərdən götürüləcəkdir"**("Çəmiə kəbirə" ziyarətin şərhi, səhifə 99)

Qeyd etdiyimiz kimi müəllif müxaliflər dedikdə Həsən Bəsri və ardıcıllarını da nəzərdə tutur.
Şübbar yazır: **"Allahın qəzəbi sizin vilayət,imamət və xilafətinizi inkar edənlərin üzərinə olsun ki,bu ən böyük əzabdır." (**"Camiə-Kəbirə ziyarətinin şərhi" səh 156)

Muhəmməd ibn İbrahim ən Numani yazır: **"Yuxarıda gətirilən rəvayyətlər dəlalət edir ki,imam baradə şübhəyə düşən vəya onu qəbul etməyən hər kəs küfrə,nifaqa,şirkə düşür.Belə adamın ölümü cahiliyyə ölümü kimidir."** ("Qeybə ən Numani" fəsil 7,son hissə)

Şeyx Səduq adı ilə məşhur olan Muhəmməd ibn Əli ibn Hüseyn ibn Babaveyh əl Qummi yazır:
**"Bizim etiqadımızdandır ki, Əli (a.s)-nin və ondan sonra gələn imamların imamətini inkar edən, sanki bütün peyğəmbərləri inkar etmiş kimidir. Əmirəlmömininini qəbul edib, imamlardan birini inkar edən, sanki bütün peyğəmbərləri qəbul edib, Muhammadı (s.a.s) isə inkar etmiş kimidir".**
("Etiqad" səh 103-104; Həmçinin, Müfid "Etiqad" səh 104)
Eyni səhifədə imam Sadiqdən nəql edir: **"Bizim sonuncumuzu inkar edən ilkimizi inkar etmiş kimidir."**

Səduq "əl Hidayə" kitabı 4-cü fəsildə 12 imama etiqadın zərurətlərindən danışarkən yazır:

**"Zəruridir ki,özünü Allah qarşısında 4 bütdən,4 qadından və onların bütün tərəfdarları və ardıcıllarından təmizləyəsən.Onlar Allahın və Peyğəmbərinin düşmənləri və Allahın ən şərli məxluqatıdırlar....Biz inanırıq ki,açıqladıqlarımıza və bundan bəzilərinə müxalif olanlar haqq yoldan qeyri bir yoldadırlar.O,doğru yoldan uzaq düşmüşdür və biz ondan,kimliyindən və milliyətindən asılı olmayaraq uzağıq.Biz onu sevmir və ona yardım etmirik.Biz ona malımızdan zəkat vermirik....**
**Biz hesab edirik ki,onun şəhadəti qəbul edilməməli,onun arxasında namaz qılınmamalıdır.Bu xüsus seçim imkanı olan hallara xasdır.Təqiyyəyə gəldikdə isə,bu halda onlara zəkat və s.vermək olar və biz onların arxasında ehtiyyat üçün namaz qılırıq."**

Əllamələri Muttəhar əl Hilli kitabında belə yazır: **"İmamət ümumi bir lütfdür.Nübuvvət isə xüsusi bir lütfdür.Ümumi olan lütfün inkar edilməsi xüsusi lütfün inkar edilməsindən daha pisdir.Imam Sadiqin də imaməti bir əsas olaraq inkar edənlərin ən şərli adamlar olduğu haqqında sözləri buna dəlildir."** ("əl Əlfeyn fi İmaməti Əli bin Əbu Talib" səh 13, Beyrut,1982-ci il)

Muhəmməd Rza Müzəffər yazır: **"Biz etiqad edirik ki,İmamət dini prinsiplərdən biridir ki,bunsuz müsəlmanın imanı tam olmaz."**("Əqidətul imamiyyə" səh 59)

Muhəmməd Rza Müzəffər elə bu səhifədə yazır: **"...İmamət Nübuvvət kimi Allahın nemətlərindəndir.Ona görə də hər zaman imam və rəhbər olmalıdır ki,insanları Peyğəmbər əvəzinə dünya və axirət işlərində yönləndirsin.Bu imam Peyğəmbər kimi dünyanın rəhbəridir.O,hikmətlə cəmiyyəti idarə edir,ədaləti bərpa edir,zülmü və haqqsızlığı aradan götürür."**

Xomeyni daha dürüst olaraq yazır: **"Vilayətsiz Allaha və Peyğəmbərlərə iman qəbul edilməz."** ("40 hədisin şərhi" səh 485,33-cü hədisin şərhində)

Xomeyninin bu sözlərini də qeyd etmək yerinə düşərdi: "Kəşful Əsrar" kitabında deyir: **"Hədisin əvvəlində də isbat etdiyimiz kimi Peyğəmbər (s.a.s)-in Quranda imamət bəhsini açıqlamamasının səbəbi özündən sonra Quranın təhrif edilməsindən qorxması və müsəlmanlar arasında ixtilafların şiddətlənib,bunun da İslama təsir etməsidir.Əgər Peyğəmbər (s.a.s) Allahın İmamət baradə ona vəhy etdiyini təbliğ etsəydi İslam ərazilərində müsəlmanlar arasında bu ixtilaflar və münaqişələr baş verməzdi."** ("Kəşful Əsrar" səh 149-155)

Kimsə deyə bilər ki,bu fikir Xomeyninin şəxsi fikridir? Cavab olaraq deyirik ki,bunlar mötəbər kitabları olan "Kafi"də nəql olunub.

**"Adamın biri Əli ibn Əbu Talibə "mənə bu elmdən bəhs et.Niyə ortaya çıxmır?"dedi.İmam dedi: Əgər Allah onunla imanları imtahan etməyəcəksə elminin üzərinə zühur etməkdən çəkinər. Hətta,deyildi ki, *"Sənə buyurulanı açıq-aşkar bəyan et və müşriklərdən üz çevir." (Hicr 92)***
**Allah burada açıqlamışdır ki,əgər bundan öncə açıqlasa idi özü üçün daha yaxşı olardı.Fəqət,Rəsul itaətdə oldu,ixtilaflardan qorxub,əlini bu işdən çəkdi."** ("Kafi" c.1,səh 243)

Abdullah Şubbar yazır: **"Əgər tövhidə etiqad Vilayətlə bir arada olmazsa Allah bu imanı heç kəsdən qəbul etməz."** ("Şərhul ziyarətul camiə" səh 99)

Yusif əl Bəhrani isə belə yazır: **"Vay olsun! Dinin əsaslarından olan imamlara inanmayanın küfrü ilə Allaha və Peyğəmbərlərinə inanmayanların küfrü arasında nə fərq var?"** ("Həqaiq ən nadira fi əhkamu itrəti təhira" c.18,səh 153,Beyrut)

Feyz Kəşani adı ilə məşhur olan Muhəmməd Muhsin kitabında yazır: **"İmamlardan birini inkar edən bütün peyğəmbərlərin nübuvvətini inkar etmiş kimidir."** ("Minhəcun nəcat" səh 48, "Darul İslamiyyə nəşr" Beyrut 1987)

Əllamə Məclisi yazır: **“Kafir,müşrik termininin möminlərin əmiri və ondan sonra gələn varislərinin imamətinə inanmayan və onların fəzilətini digər insanlardan üstün hesab etməyənlər haqqında varid olması dəlalət edir ki,bu insanlar cəhənnəmdə əbədi qalacaqlar.”** (“Biharul ənvar” 23/390)
Şiəliyə qarşı xoş münasibət bəsləyənlər elə bu şiələrin özlərinə görə əbəbi cəhənnəm sakinləridir.İbrət alan varmı?!

Muhəmməd Həsən ən Nəcəfi yazır: **“Haqq əhlinə müxalif olan bizim icmamıza görə kafirdir.”** (“Cəvahirul kəlam” 6/62 “Darul ihyait turasil ərabi” nəş. Beyrut)

Vilayəti yəni, imaməti qəbul etməyənlərin icma ilə kafir olması iddialarına diqqət edin! Onlara görə Əhli Sünnə icmayla kafir hökmündədir. Hakim ləqəbli Muhsin Təbatəbai müxaliflərin icmayla kafir hökmündə olduğunu qeyd etmişdir.Bu “Mustəmsiqul urvətul vusqa” (1/392) kitabında mövcuddur.

Ayətullah şeyx Abdullah əl Məmqani “Tənqihul məqal” kitabında yazır: **“Xəbərlərdən hasil olan son nəticəyə görə 12 imami məzhəbinə aid olmayan hər kəs Qiyamət günü kafir və müşrik qismində olacaqdır.”** (c.1,səh 208; ”Babul Fəvaid”,Nəcəf 1952)

Ayətullah Seyyid Muhəmməd Şirazi “əl Fiqh”kitabı “təharət” babında yazır: **“ Şiələrin 12 imamilərdən başqa digər firqələrinə gəldikdə isə xəbərlərin əksəriyyəti onların kafir olmasını təsdiq edir.Rəvayyətlər təsdiq edir ki,imamı inkar edən “Allah üçdən biridir” deyən kimidir...”**

Mühəddis və böyük alimləri olan Abbas Qummi deyir: **“Axirətin dəhşətli mənzillərindən biri də siratdır...Axirətdə ki,bu sirat dünyadakı haqq din,vilayət yolu,möminlərin əmiri və onun pak zürriyyətinə tabe olunmuş “sıratu mustəqim”in bir digər halıdır.Bu yoldan uzaq olub,söz və hərəkətlə batilə meyl edən hər kəsin ayağı sürüşəcək və cəhənnəmə varid olacaqdır.”** (“Mənazilul axirə”səh 149)

Eyni kitabda (səh 150) Abbas Qummi əllamə Məclisinin belə dediyini yazır: **"Bu maneələrin hər biri siratın üzərindədir.Bunlardan birinin adı da Vilayətdir.Bunun önündə bütün insanlar dayandırılacaq və möminlərin əmiri və ondan sonrakı imamlar baradə sorğu sual olunacaqlar. Vilayəti bu dünyada təsdiq edənlər xilas olacaqlar.Təsdiq etməyənlər isə orada qalar və oda düşər." "Onları dayandırın, çünki onlar sorğu-sual olunacaqlar" ayəsində deyildiyi kimi."**

Ayətullah Əbul Qasim əl Xoyi "Kitab əl təhara" kitabında yazır: **"Düzgün rəyy bu olardı ki,imami məzhəbinə müxalif olanlar zahirən təmiz və İslamdadırlar.Bu məsələdə onlar ilə müxaliflər arasında heç bir fərq yoxdur.Əslində isə onlar hamısı küfr əhlidirlər.Onlar o kimsələrdir ki,bu dünyada müsəlman,axirətdə isə kafirlər olaraq adlandırır."** (c.2,səh 87)

Ayətullah uzma Ruhullah əl Musəvi Xomeyni Muhəmməd ibn Muslim əs Səqəfinin belə dediyini rəvayyət edir: **"İmam Baqirə "Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!" (Furqan 70) ayəsi haqqında sual soruşdum.**
**İmam dedi: "Günahkar mömin Qiyamət günü haqq-hesab yerinə gətirilər.Hesabını Allah Təala özü aparar və heç kəsi də buna şahid tutmaz.O qula günahları onun bunları etiraf etməsinə qədər göstərilər.Qul bunları etiraf edincə Allah Təala yazı yazanlara "bu günahları yaxşı əməllərlə əvəz edin və insanlara göstərin" deyər. İnsanlar "bu qulun heç bir günahı yoxdur" deyərlər.Sonra Allah Cənnətə əmr edər.**
**Ayənin təvili belədir.Bu ayə xüsusi ilə bizim şiələrdən olan günahkarlar haqqındadır."** ("əl Ərbainə hadisən" səh 510-511,Beyrut,1991-ci il)

Xomeyni bu rəvayyətin şərhində yazır: **"Məlumdur ki,bu yalnız Əhli beyt şiəsinə məxsusdur.Digər insanlar bundan məhrumdurlar.Çünki,iman ancaq Əli və onun məsum,pak vəsiləri**

**vasitəsi ilə mövcud ola bilər.Hətta,bir sonrakı yerdə qeyd edəcəyimiz kimi Allah və Rəsulu vilayətsiz imanı qəbul etməzlər."**

Xomeyni 512-ci səhifədə yazır: **"Vilayət və onu qəbul etməyənin imanının qəbul edilməyəcəyi məsələsi müqəddəs şiə məzhəbinin zəruriyyətlərindəndir.Bu mövzu ilə bağlı xəbərlər mütəvatir səviyyəsindən də üstün dərəcədədir.Bu kitab bu xəbərlərdən bəzilərini açıqlayır."**

Kitabın 513-cü səhifəsində isə Xomeyni bunu belə açıqlayır: **"Bu məna ilə bağlı xəbərlər çoxsaylıdır.Ümumi çıxan nəticəyə görə Əhli beytə vilayət Allah Təala qatında əməllərin qəbul edilməsi üçün şərtdir.Hətta,bu Allah və Elçisinə imanın qəbul edilməsi üçün də əsas şərtdir."**

Ayətullah Əbul Qasim əl Xoyi yazır: **"Onların (müxaliflərin) küfründə heç bir şübhə yoxdur. Çünki,vilayətin və imamların birinin belə inkar edilməsi,imamlardan başqasının xilafətinə inanılması və s.bunlar küfrü və zındıq olmağı zəruri edən amillərdir.Vilayəti inkar edənin küfrü barasində ki, zahiri mütəvatir xəbərlər buna dəlalət edir."** ( "Misbahul fuqəha" 2/11,Beyrut)
Bir sonrakı səhifədə Xoyi yazır: **"Bizimlə müxaliflər arasında nə qardaşlıq nə də ismət ola bilməz."**

Şeyxləri Kamil Süleyman kitabında Peyğəmbər (s.a.s)-in guya belə dediyini nəql edir: **"Mənim Əhli beytimdən olan 12 nəfərə Allah mənim fəhmimi vermişdir....Onlar mənim xəlifələrim, vasilərim, övladlarım və itrətimdir.Kim onlara itaət edərsə mənə itaət etmiş,kim də onlara asi olarsa,mənə asi olmuş olar. Kim onları vəya onlardan birini inkar edərsə,məni inkar etmiş olar..."** ("Yəvmul ixlas fi zillil qaimil Mehdi" səh 45,Beyrut)
Müasir bu şiə müəllifi bir öncəki səhifədə Peyğəmbər (s.a.s)-in belə buyurduğunu nəql edir: **"Onları yəni,12 imamı təsdiq edən mömin,inkar edən isə kafirdir."**

Yusif əl Bəhrani yazır: **"əş Şihabus saqib" kitabında tədqiq etdiyimiz kimi müxaliflərin kafir olmasını və onların İslamdan heç bir nəsibi olmamasını öyrənmiş oldun."** ("Həqaiq ən nadira fi əhkamu itrəti təhira" c.18,səh 53)

Məşhur alimləri şeyx Abdullah Şübbar kitabında yazır: **"İnad və təəsüb göstərməyən digər müxaliflər haqqında isə seyyid Murtəza kimi bütün İmamiyyə alimləri onların dünya və axirətdə kafir olduğu fikrindədirlər.Əksəriyyətin üzərində ittifaq etdiyi ən məşhur rəyə görə onlar axirətdə əbədiyyən kafir olan kimsələrdir."** ("Haqqul Yəqin" 2/188,Beyrut)

Şeyx Mufid deyir: **"Şiələr imamlardan hər hansı birini inkar edən və ya onlardan birinə itaət etməyi qəbul etməyənin kafir olacağı və cəhənnəmdə əbədi qalacağı məsələsində icma etmişlər."** (Mufid "Məsail"; Məclisi "Biharul ənvar" c.23,səh 390-391)

Şeyx Musa Carullah Türkistani kitabında belə yazır: **"Şiə kitablarını oxuduğum zaman onların ən böyük düşməninin Əhli Sünnət olduğunu görür,buna heyrət və təəsüf edirdim.Bütün şiə təbəqələrinin düşmənçilik ruhu ilə yetişməsini öz gözlərimlə gördüm."**("əl Vəsia fi nəqdi əqaiduş şia" səh 227,Lahor)

Bu sözlər onların kitablarını oxumuş,onların arasında yaşamış şeyx Carullaha aiddir.Bu sözləri şeyxləri Muhəmməd Həsən ən Nəcəfi kitabında bu şəkildə təsdiqləyir:
**"Məlumdur ki,Allah "möminlər bir-birilərinə ancaq qardaşdırlar." buyurmaqla yalnız möminlər arasında qardaşlıq qurmuşdur.Buna görə də onlara müxalifət etmənin və onlardan uzaq olmanın vacibliyinə dair mütəvatir xəbərlər və bu qədər ayələr olarkən,mömin ilə müxalif arasında qardaşlıq münasibətinin olmasını necə təsəvvür etmək olar?!"** ("Cəvahirul kəlam" 22/62-63)

Şiələrin sünnilərə qarşı düşmənçilik bəsləyib,onlardan uzaq olmağın vacibliyi və bunun da mütəvatir rəvayyətlərə əsaslandığını dediklərinə diqqət edin!

Nəhayət,söhbət heç onların imamətinə inanıb-inanmamaqdan getmir.Biz onlara görə yalnız Əbu Bəkr və Öməri sevdiyimizə görə cəhənnəmdə olacağıq.

Muhəmməd Həsən Musəvi Kəşani kitabında Cəfər Sadiqdən rəvayyət edir: **"Muhəmmədi haqqla göndərən Allaha and olsun ki,əgər Cəbrayıl və Mikayılın qəlblərində onlara (Əbu Bəkr və Ömər) bağlılıq olsa idi Allah onları oda atardı."** ("Qiyamlar" səh 60,"Əndişei Hadi" nəşr; 2005 il)

Məclisi imam Zeynəlabiddinin köləsinin imama belə dediyini nəql edir: **"Mənim sizdən bir şeyi soruşmaq haqqım vardır.Mənə Əbu Bəkr və Ömər haqqında danışın." İmam cavab verdi: "Bu ikisi və onları sevənlər kafirdilər."** ("Biharul ənvar" 69/137-138; "Haqqul Yəqin" səh 522)

Onlar peyğəmbərlərin imamları qəbul etmədiyini və buna görə də Allahın onları sınağa çəkdiyini deyirlər.

Əbu Həmzə Suməli rəvayyət edir ki,Abdullah ibn Ömər İmam Zeynəlabdiddinin yanına gələrək dedi: "Siz iddia edirsiz ki,Yunus sizin babanızın imamətini qəbul etmədiyinə görə balığın qarnında həbs edilmişdi?
İmam Səccad dedi: "Bəli,bu belədir."
İbn Ömər dedi: "Əgər bu belədirsə bunu sübut edə bilərsiz?"
İmam Səccad dedi: "Bəli.Ey Əbu Həmzə! İbn Ömərin və öz gözünü dəsmalla bağla."
Bir neçə dəqiqədən sonra imam dedi: "Gözlərinizi açın."
Ravi deyir: "Gözlərimizi açanda biz özümüzü sıldırımlı dəryanın kənarında gördük.
İbn Ömər dedi: "Ağa!Mənim qanım sənin boynundadır.Birdən siz məni öldürmək istədiz."
İmam dedi: "Sakit ol.Sən özün istədin ki,sübut edək və göstərək."
Sonra imam dəryaya işarə edərək dedi: "Ey balıq!"

Bu zaman dəryadan dağ boyda başı olan balıq boylandı və dedi: "Mən sənin qarşındayam ey Allahın dostu!"
İmam balıqdan soruşdu: "Sən kimsən?"
Balıq dedi: "Mən Yunusun balığıyam."
İmam dedi: "Bu hekayəni mənə ətraflı danış."
Balıq dedi: "Allah Təala Adəmdən tutmuş Muhəmməd (s.a.s)-ə qədər bütün peyğəmbərlərə sizin ailənizin vilayətini qəbul etməyi buyurdu.Hər kim ki,qəbul edirdi o əmin amanlıqda olurdu.Hər kim ki,qəbul etmədə az da olsa tərəddüd edirdi,çətinliyə düşürdü.Misal olaraq Adəm günaha batdı,Nuh tufanla,İbrahim odla,Yusif quyu ilə,Əyyub qəm-qüssə ilə,Davud səhvlərlə bağlı çətinliyə düşdülər.Nəhayət Yunisin növbəsi də çatdı. Uca Allah Yunisə üz tutaraq: "Möminlərin Əmiri Əlini və onun pak ailəsindən olan məsum imamları sev!" dedi.
Yunus isə dedi: "Mən görmədiyim və tanımadığım adamı necə sevim?"
Allah Təala mənə Yunusu udmağı,amma bununla belə ona zərər vurmamağı əmr etdi.40 gün o mənim qarnımda qaldı.Mən dəryalarda üzürdüm,o isə mənim qarnımda Allaha dua edərək deyirdi: "Ey Rəbbim!Sən bütün nöqsanlardan uzaqsan.Həqiqətən mən özümə zülm etdim."
Yunus sizin vilayətinizi qəbul etdikdən sonra Allah Təala onu bir sahilə atmağı mənə əmr elədi."
İmam Səccad nəhayət balığa öz yerinə qayıtmağı buyurdu" ("Qiyamlar" səh 73-74,Əndişei Hadi nəşr; 2005 il)
Buna bənzər hədis imam Əlidən digər kitablarda nəql olunur.("Bəsair əd-dərəcat",c.2, səh10, Tehran çapı)
Onların iddiaları və düşkünlüyünə baxın ki,onlar peyğəmbərləri Allaha asilikdə ittiham etmişlər!

## 2. Şiə əqidəsinə görə Nasibi Əhli Sünnə vəl Camaatdır.

Şiələr Əhli Sünnəti Rəsulullah (s.a.s)-ın Əhli beytinə düşmən olaraq görürlər.Bu səbəbə görə də Əhli beytə düşmən olan nasibi terminini onlara qarşı istifadə edirlər.Ancaq, Əhli Sünnət təbii ki,bu ittihamlardan tamamən uzaqdır.

Nəvasib elə bir firqədir ki,onlar Əli ibn Əbu Talibin ailəsinə nifrət edirdilər.Bu onların İslam alimləri tərəfindən vəsf olunmuş xüsusiyyətidir.Nasibilərdən kiminsə Əli (r.a)-yə qarşı olan savaşlarda ya qardaşı,ya atası,ya da babası ölmüşdü.Söhbət, Müaviyyə ilə Əli arasında olan müharibədən gedir ki,bu döyüşlərdə hər iki tərəfdən çoxlu müsəlman ölmüşdü.

Şiələrin icmasına görə Nəvasiblər kafir və nəcisdir. Əbul Qasim Xoyi yazır: **"Allahı,axirəti inkar edən və ya Allahla bərabər başqa məbudu qəbul edən kafir və nəcisdir.Həmçinin, qulatlar,(12 imamın ilah olduqlarını,Allahın onlara təcəlli etdiklərini iddia edənlər) Xəvariclər və Nəvasiblər də nəcisdirlər."** http://al-islam.org/laws/al-khui/2.htm#6

Mühəddis Yusif əl Bəhrani kitabında yazır: **"Xəbərlərdə və sələfin sözlərində varid olandan anlaşılır ki, nəvasib sözündən qəsd olunanlar müxaliflərdir."**("əl Hədaiqun nadira" c.18,səh 157,Qum)
Eyni kitabda növbəti səhifədə o yazır: **"Onların (imamların) hədislərində nəcislik,nigahlanmamaq,qanın-malın halal olması və s.sifətlərlə vəsf olunan nasibilərdən məqsəd müxaliflərdir."**

Şiələr müxaliflər dedikdə Əhli Sünnət və şiə olmayan digər camaatları nəzərdə tuturlar."Siqatul İslam" ləqəbli Kuleyni "Kafi" kitabında Muhəmməd ibn Muslim sənədi ilə gələn rəvayyəti nəql edir:
**"Bir dəfə Əbu Hənifə Əbu Abdullahın yanında olarkən,mən onun yanına girdim və ona dedim ki,sənə fəda olum,qəribə bir yuxu görmüşəm.O mənə dedi ki,ey ibn Müslim, yuxunu danış,onun alimi burada əyləşib.Bunu deyib əli ilə Əbu Hənifəyə işarə etdi. Mən dedim: "Yuxuda gördüm ki,guya mən öz həyatımə girdiyim vaxt arvadım əlində çoxlu qoz qarşıma çıxdı və qozları mənim üstümə**

**atdı.Mən bu yuxuya məəttəl qaldım". Əbu Hənifə dedi: "Sən öz arvadının mirası üstündə alçaq adamlarla rəqabət aparır, çalışırsan.Böyük əziyyətdən sonra, inşallah,istəyinə nail olacaqsan." Əbu Abdullah dedi: "Ey Əbu Hənifə! Allaha and olsun ki, doğru dedin!".**
**Sonra Əbu Hənifə çıxıb getdi və mən ona dedim: "Sənə fəda olum,mən bu Nasibinin ifadəsindən iyrəndim."O dedi: "Ey Ibn Müslim! Allah sənə pislik eləməsin,onların ifadələri bizim ifadələrimizlə,bizimki onlarla bir deyil.Bu ifadə onun dediyi mənanı vermir." Mən dedim: "Sənə fəda olum,bəs o, səhv etdiyi halda sənin and içib ona "doğru dedin" deməyini necə başa düşək?" O dedi: "Bəli, mən and içdim ki, o yalanı doğru dedi."** ("Kafi" "Kitab ər-rovzə", c.8,səh 292, Tehran)

Onların məşhur alimi şeyx Mufid adı ilə məşhur olan Muhəmməd ibn Numan "İddətu rəsail fəslul məsailis səqaniyyə"kitabında 253,263,265,268 və 270 səhifələrdə Əbu Hənifəni nasibi adlandırmışdır.

Digər şiə şeyxi Nemətullah əl-Cəzairi yazır: **"Bu mənanı dəstəkləyən daha bir fakt isə budur ki, imamlar və sələfimiz nasibi sözünü Əbu Hənifə və onun bənzərləri üçün istifadə etmişlər. Halbuki, Əbu Hənifə Əhli beytə qarşı düşmənçilik edən biri deyildi.Əksinə, onlara qarşı meyl edirdi və onlara qarşı sevgi göstərərdi. Lakin, onların fikirlərinə müxalifət edərdi və deyərdi: "Əli dedi və mən deyirəm."** ("Ənvarun Numaniyyə",c. 2/206-207,bəzi yerlərdə səh 307,Təbriz)

Əbu Hənifə fəzilətdə ilk üç xəlifəni Əli (r.a)-dən daha əfzəl hesab edirdi.Məhz buna görə onlar Əbu Hənifəni nasibi hesab edirlər.Təkcə bu kifayət edir ki,onlar imamı küfrdə ittiham edib,İslamdan kənar hesab etsinlər. Yenə,məhz buna görə şiələr bütün sünniləri nasibi hesab edirlər.

Cəzari həmin səhifədə yazır: "...Buna eləcədə əs-Saduqun "əl-İləl əş-Şərai" əsərində imam Sadiqdən mötəbər bir sənəd ilə gətirdiyi rəvayyət də dəlalət edir: "**Nasibi bizə, yəni Əhli beytə düşmənlik**

**edən deyildir.Çünki,sən heç bir kəsin "Mən Muhammədə və onun ailəsinə nifrət edirəm" dediyini görməzsən. Lakin nasibi, sizə düşmənçilik edəndir.Çünki o, bilir ki, siz bizimlə dostluq edirsiniz və bizim şiələrimizsiz. Bu mənaya dəlalət edən rəvayyətlər çoxdur. Eləcədə Peyğəmbər (s.a.s)-dən rəvayyət olunmuşdur: "Nasibilərin əlamətlərindən biri də Əlidən başqasını ona üstün tutmaqdır."**

Hüseyn əl-Əsfur əd-Dərazi əl-Bəhrani yazır: **"Başa düşdüyün kimi Nasibi termini imam Əlidən qeyrisini ondan üstün görənlərdən başqası üçün istifadə olunmur."** ("əl-Məhasin ən-Nəfsaniyyə", səh 157,Beyrut)

Əbu Hənifə fəzilətdə ilk üç xəlifəni Əli (r.a)-dən daha əfzəl hesab edirdi.Məhz buna görə onlar Əbu Hənifəni nasibi hesab edirlər.Təkcə bu kifayət edir ki,onlar imamı küfrdə ittiham edib,İslamdan kənar hesab etsinlər. Yenə,məhz buna görə şiələr bütün sünniləri nasibi hesab edirlər.

Həmçinin,Hüseyn əl-Əsfur əd-Dərazi əl-Bəhrani yenə yazır: **"İmamlardan gələn xəbərlərdən anlaşılır ki,Nasibilər öz aralarında özlərini sünni adlandıranlardır."** ("əl-Məhasin ən-Nəfsaniyyə", səh 147)

Bu barədə ətraflı izah verən Bəhrani davam edərək yazır: **"....Allahın Kitabında şirk sözünün zikr olunduğu elə bir ayə yoxdur ki, onunla Nasibilər qəsd olunmasın.
Bizim əvvəldə söylədiyimiz kimi gələn rəvayyətlərin dəlalət etdiyi mənaya gəldikdə isə, Nasibi imam Əlidən başqasını üstün tutandır. İbn İdrisin "Mustətrafat əs-Sərair" kitabında "Məsəil ər-Ricəl" kitabında Muhamməd bin Musaya qədər çatan isnad ilə rəvayyət etdiyinə görə: "Ona yəni, Əli bin Muhammədə yazaraq Nasibi barədə soruşdum: "Cibt və Tağutu (Əbu Bəkr və Öməri) üstün tutan və bu ikisinin İmam olduğuna etiqad edən birinin Nasibi olduğuna hökm vermək üçün bu etiqadından da çoxunu yoxlamağa ehtiyac varmı?" Ondan belə cavab aldım ki, "kim artıq bu etiqaddadırsa, o Nasibidir."**

**ər-Ravəndinin "Nəhcul-Bəlağa" şərhində qeyd olunduğuna görə Peyğəmbər (s.a.s)-dən soruşuldu ki, ondan sonra Nasibilər kimlərdir? Dedi: "Başqasını imam Əliyə üstün tutan"**
Sözünün davamında deyir:

**"Lakin Nasibinin Əhli beytə düşmən olan biri kimi izah olunmasına gəldikdə isə necəki son dövr alimlərimizin çoxu bu rəydədir,bunu isbat edən heç bir dəlil yoxdur.Əksinə, bu görüşü ləğv edən rəvayyətlər vardır. "İqab əl-Aməl val-İləl vas-Sifət əş-Şiə" kitabında isə Abdullah bin Sənan və əl-Məalə bin Xuneysə qədər çatan sənəd ilə Əbu Adbullahdan gələn rəvayyətdə o, demişdir: "Nasibi sadəcə bizə yəni,Əhli beytə düşmənlik edən deyildir.Çünki elə bir nəfər də yoxdur ki, "Mən Muhammədə və Muhammədin ailəsinə nifrət edirəm" desin. Əslində Nasibi sizə düşmənlik edəndir.Çünki o, bilir ki, siz bizə inanırsız və bizim şiələrimizsiz." Onun dayanılan bu görüşü rədd etməsi açıq-aşkardır.... Lakin,imamlardan gələn xəbərlər bildirir ki, Nasibi əslində onlara görə "sünni" olandır."** (“əl-Məhasin ən-Nəfsaniyyə", səh 145-147)

Hüseyn ibn Şihabuddin əl Kərki əl Amili deyir: **“Kafirləri peyğəmbərlik risalətini inkar etməyə sövq edən şübhə,nasibiləri də imamların vilayətini inkar etməyə sövq etdi...”** (“Hidayətul əbrar” səh 106)

Şeyx Əli Muhsin kitabında yazır: **“Əhli Sünnə alimlərindən olan nasibilərə gəlincə onlar çoxdurlar. Misal olaraq: İbn Teymiyyə,İbn Kəsir,İbn Cəvziyyə,Zəhəbi,İbn Həzm və s.”**(“Kəşful Həqaiq” səh 249,Beyrut)
Şiə alimi Muhsin əl Muallim “Nəsb və Nəvasib” kitabında 5-ci bab,3-cü fəsildə **“Qullar arasında nasibilər”** başlığı altında özlərinə görə nasibi olan 200 nəfərdən artıq adamın adını sadalayır. Nasibilərdən bəzisini o qeyd edir: **“Ömər,Əbu Bəkr, Osman, Aişə, Ənəs ,Həsən ibn Sabit,Zubeyr ibn Əvvam,Səid ibn Musəyyib,Sad ibn Vəqqas,Təlha ibn Ubeydullah, Auzai, Malik,Əbu Musa əl Əşari,Urva ibn Zubeyr,Zəhəbi,Buxari,Zuhri,Muğira ibn Şubə,Həmid əl**

**Fiki,Muhəmməd Rəşid Rza,Muhibuddin əl Xətib,Alusi və s.”** (“Nəsb və Nəvasib” səh 259,Beyrut)

Müasir Kuveyt alimi Yasir Həbib xütbəsi zamanı aşkarca demişdi ki, ”Sünnilər kafir və nasibidirlər”
Həmçinin: “Əbu Bəkr,Ömər şiələr üçün yəhudi və İblisdən daha böyük düşməndirlər.O,deyir: “Bir nömrəli düşmən Əbu Bəkr,ikinci Ömər,üçüncü isə İblisdir.”
http://youtube.com/watch?v=sNhhRdNNmlM

Deməli,sünnilər bütünlüklə onlara görə nasibidir.Ayətullah Muhəmməd Hüseyn Şirazi böyük fiqh məcmuasında (33/38,Beyrut) yazır: **“Üçüncü: Əbu Abdullahın ibn Sinandan varid olduğu kimi nasibinin avam kimi təfsir edilməsi...”**

Hər hansı bir nəfər şiələrin avam dedikdə sünniləri nəzərdə tutduğunu haradan bilirsən soruşsa,ona deyərik: Biz bu firqəni kitablarından və alimlərinin sözlərindən tanıyırıq.
Ayətullah Muhsin əl Əmin “Əyanuş şia” (1/21,Beyrut,1986 il) adlı tanınmış əsərində yazır: **“Əshabımız Əhli Sünnə vəl camaat deyə adlandırılanlar üçün avam, özləri üçün isə həvas kəlməsini istifadə etmişdir.”**

Şiələrin alimi şeyx Hüseyn ibn Şihabuddin əl Kərki əl Amili belə yazır: **“Birinciyə avamdan olan Muzəni,Qazali,Seyrəfi kimi kimsələr,həvasdan isə iki rəydən birinə görə alim olanlar qail olmuşlar.”** (“Hidayətul əbrar” səh 264)

Şeyx Fəthullah Nəmazi əş Şirazi isə belə yazır: **“Avam təriqi ilə gələn hədisi Buxari,Muslim....kimi bir çox mühəddislər rəvayyət etmişlər.”** (“Qaidətu lə dərara və lə dırar” səh 21,Beyrut)

Deməli avam - Əhli Sünnətdir və nasibi kəlməsi də sünnilər haqqında istifadə edilməkdədir.

Təlxək Muhəmməd Ticani Səmavi "Şiə hum Əhli Sünnə" kitabında bir neçə yerdə açıq şəkildə sünniləri nasibi adlandırır.

Səh 79-da yazır: **"...Heç bir şübhə yeri olmayan dəlillərə əsasən onlara görə (Əhli hədis vəya Əhli Sünnə) sünnə Əli (r.a)-yə düşmən olmaq,ona lənət etmək və ondan uzaq olmaqdır.Bu elə Nasibilikdir."**
Ey Allahın qulları! Əhli Sünnət Əli (r.a)-yə lənət oxuyur,ondan təbərri edirmi?! Allaha and olsun ki,bu böyük bir iftiradır.

Səh 161-də yazır: **"İzah etməyə gərək yoxdur ki,nasibilərin məzhəbi Əhli Sünnə vəl cəmaatdır."**
Məlumdur ki,Əhli Sünnə nasibiləri rədd etmiş,Əhli beyt mənsublarının fəzilətlərini kitablarında dəfələrlə işıqlandırmışdır.

Səh 163-də yazır: **"Nasibilər Əli (r.a) ilə düşmən olanlar və Əhli beytə qarşı vuruşanlardır. Bunlar özlərini Əhli Sünnə adlandıranlardır."**

Səh 295-də yazır: **"Araşdırmanı biraz da dərindən aparsaq məlum olacaq ki,Əhli Sünnə Əməvi və Abbasilərin başçılığı ilə Əhli beytə qarşı müharibə etmişlər."**

Bu mürcim səh 159-da belə bir fəsil ayırır: "Əhli Sünnətin Əhli beytə olan düşmənçiliyi o özünü ifşa etmişdir." Burada o yazır: **"Tədqiqatçı Əhli Sünnənin həqiqətləri ilə rastlaşarkən başa düşür ki,bunlar Əhli beyt ilə vuruşanlar,onları məhv etmək istəyən düşmənlərdir."**

Bununla kifayətlənməyən Ticani səh 164-də yazır: **"Bu fəsilə yaxşı diqqət elə! Beləki,Əhli Sünnətin gizli tərəflərini,onların Peyğəmbər (s.a.s)-in itrətinə qarşı necə gizli kin bəslədiyinin və onların fəzilətlərini alçaltmaq üçün necə təhriflərə getdiyinin şahidi olacaqsan."**
Çox qəribədir ki,bu adam bütün kitabı boyu yalnız Əhli Sünnə hədis kitablardan Əhli beytin fəziləti baradə olan hədisləri nəql edir.

Səh 249-da yazır: **"Lakin,Əhli Sünnə vəl camaat Əli ibn Əbu Talibə və Əhli beytə qarşı duyduğu şiddətli düşmənçiliyə görə hər**

**məsələdə onlara müxalif olmuşlar.Belə ki,özlərinə görə nəbəvi sünnət olan hər məsələdə Əli və şiəsinə müxalif olmaq onlarda adət halına gəlmişdir."**

Əhli Sünnə alimləri və avamı hər məsələdə Əliyə müxalif olmağı özlərinə şüar etmişlər?!!
Bütün bunlardan sonra şiəliyin müsəlmanlar qarşısında heç bir məsuliyyət daşımayıb, əmanət duyğusu hiss etmədiyinin şahidi oldunmu?
Əziz müsəlman qardaşım! Əlinizdəki, bu risalədə imami şiə məzhəbinin ardıcıllarına müxalifləri aldatmağa,onlara yalan deməyə icazə verdiklərinin şahidi olacaqsan.

Səh 299-da bunları yazır: **"Əhli Sünnə əqidəsi,kitabları və Əhli beytə qarşı tarix boyu göstərdikləri münasibətlə qısa şəkildə tanış olduqdan sonra heç bir tərəddüdsüz və aydın şəkildə məlum olacaq ki,onlar Əhli beytə zidd və düşmən olmuş,onları öldürmək üçün qılınclarını sıyırmış,dəyərlərini azaltmaq,haqqlarında nalayiq sözlər demək və düşmənlərini ucaltmaq üçün qələmlərini işə salmışlar."**

Səhifə 300-də isə bunları yazır: **"Onları-yəni,Əhli Sünnəti Hüseynin qatilləri qarşısında razılıq göstərən,onları sevən və dəstəkləyən kimi görürük.Bu onlara görə adi bir şeydir. Çünki, Hüseynin qatillərinin hamısı Əhli Sünnə və camaatdandır….!"**

Ticaninin "Hüseynin qatillərinin hamısı Əhli Sünnətdəndir" və daha öncə sərf etdikləri sözlərə izah verməyə ehtiyyac duyulmayacaq qədər aydındır.Hüseynin qətlinin səbəbi yalnız şiələrdir.Allaha həmd olsun ki,Əhli Sünnə onun qanının tökülməsi məsələsində günahsızdır.

Ən böyük müctəhidlərindən olan Ayətullah Muhsin əl Əmin imam Baqirdən belə rəvayyət edir: **"İmam Həsənə beyət edildi və əhd alındı.Sonra bu əhdə xəyanət edildi və İraqlılar onun üzərinə gəldilər.Yan tərəfindən xəncər yarası ilə yaralandı.Əsgərləri onu alıb,Müaviyyəyə təslim etdilər.Beləliklə,onun və Əhli beytinin qanı tökülmüş oldu…..Sonra İraqlılardan 20 000 nəfər Hüseynə beyət**

**etdilər.Sonra xəyanət etdilər və beyət etdikləri halda ona qarşı çıxdılar və öldürdülər.”** (“Əyanuş şia” səh 26)

“Fatimə Suğra (İmam Hüseynin nəvəsi) Kufə əhlinə müraciətdə dedi: **“Ey xainlər,fitnəkarlar və özünə arxayın adamlar! Allah Təala bizi (Əhli beyti) sizlə,sizi də bizimlə imtahan etdi.Siz bizi küfr və yalanda ittiaham etdiz.Bizə qarşı savaşmağı caiz görüb,əmlakımızı qarət etdiz.Siz bizim babamızı onda öldürdüz.Sizin qılınclardan Əhli beytin qanı hələ axmaqdadır.Sizə lənət olsun.Əzabı özünüzə gəlmiş kimi gözləyin.....Ey Kufə xalqı! Allahın sizə lənəti olsun!Sizin qarşınızda mən nə qədər Peyğəmbər (s.a.s)-dən moizələr oxudum.Sonra siz onun qardaşı Əli ibn Əbu Talibə,mənim babama,onun oğullarına və ailəsinə xainlik etdiz.”** (“Əbu Mənsur ət Təbərsi “İhticac” c.2,səh 27,Nəcəf)

Imam Zeynəlabidin deyir: **“Ey millət! Mən Allaha and verirəm.Siz bilirsinizmi ki, siz mənim atama yazdınız və sonra ona xəyanət etdiniz və siz özünüz ona vəd, öhdəlik verib,beyət etmişdiz. Öz elədiklərinizə görə sizə lənət olsun .....hansı gözlə Peyğəmbər (s.a.s)-ə baxacaqsınız nə vaxt ki, sizə deyəcək: "Siz mənim ailəmi öldürdüz,mənim qadağalarımı aşdız və siz mənim ümmətimdən deyilsiniz.”** (Təbərsi “Kitab əl İhticac” c.2,səh 32,Nəcəf)

Həsən ibn Əli öz şiələri barədə demişdir: **“Allah and olsun,mən bu fikirdəyəm ki, Müaviyyə mənim üçün bunlardan daha yaxşıdır. Bunlar deyirlər ki, mənim şiələrimdirlər, özləri isə mənim qətlimi istəyirlər ki, malıma sahib dursunlar. Allaha and olsun ki, yaxşı olar ki, mən Müaviyyə ilə əhdi-peyman bağlayım, özümü ölümdən qurtarım, ailəmin təhlükəsizliyini təmin edim, nəinki onlar(şiələr) məni öldürsünlər, nəslim və ailəm yox olsun.”**(Təbərsi “əl-İhticac”c.2, səh 10)

Ticaninin sələflərinin mövqeyi təkcə Həsən və Hüseynə qarşı deyil,Əli (r.a)-yə qarşı da belə idi. Beləki,”Nəhcul bəlağa”da Əli (r.a) deyir: **“Allaha and olsun ki, Müaviyyə sizi onlarla dinarı dirhəmlə xırdalayan kimi dəyişməyə razı olsaydı, sizin onunuzu verib onlardan birini alardım.Ey Kufə əhli! Mən sizdə bir üç şey**

**görmüşəm, bir də iki şey: qulaqlarınız var karsınız, diliniz var lalsınız, gözləriniz var korsunuz; üz-üzə gələndə doğru danışmazsınız, dara düşəndə bir-birinizə qardaş köməyi göstərməzsiniz. Sizi görüm başınız batsın! Ey çobanları itmiş dəvə sürüsünə bənzəyənlər! Bir tərəfdən bir yerə toplayanda o biri tərəfdən dağılışırsınız. Allaha and olsun ki, mən indi sizinlə birlikdəyəm, ancaq təsəvvür edirəm ki, vuruş başlasa, döyüş qızışsa, siz Əli ibn Əbu Talibdən aralanıb qabaqdan qıçlarını aralamış qadının qıçları kimi hərəniz bir yana gedərsiniz."** ("Nəhcul bəlağə",xütbə 97, səh 141-142)

Əbu Abdullahdan nəql olunur: **"Uca Allah münafiqlər barədə elə bir ayə nazil etməyib ki,o bizim şiələrimizə şamil olunmasın."** ("Ricalul Kəşşi" səh 254 "Əbul Xəttabın bioqrafiyyası" fəsli)

Mufəddəl ibn Ömər Əbu Abdullahdan rəvayyət edir ki,imam demişdir: **"Əgər Qaim Mehdi gəlsə idi,o mütləq bizim şiələrdən olan yalançılardan başlayardı və onları öldürərdi."** ("Ricalul Kəşşi" səh 253; "İbn Xəttabın bioqrafiyyası"fəsli)

Musa ibn Cəfər öz şiələri barədə demişdir: **"Mən öz şiələrimi başqaları ilə müqayisə edəndə onları ancaq boşboğaz gördüm, onları imtahan etdim, amma mürtəd gördüm.**"(Kuleyni "Kitabur-ravda" c.8,səh 228)

### 3. Əhli Sünnətin qanlarının mübah olması.

Şiəlik sünnilərin qanlarını mübah görür.Çünki,onlar kafir hökmündədir və şiələrə görə nasibidirlər. Aşağıda şiələrin çirkin və rəzilliklərini isbat edən sitatlar nəql olunacaq.

Şeyx Səduq kitabında Əbu Abdullahdan rəvayyət edir: "Ravi soruşdu: **"Nasibilər haqqında nə deyirsiz? İmam dedi: "Onun qanı mübahdır.Lakin,mən sənə görə qorxuram.Əgər şahid olmasa,onlardan birinin üzərinə divarı aşıra bilsən və ya dəryada boğa bilsən bunu et.Bəs onun malı necə? İmam cavab verdi: "Götürə bildiyin hər şeyi al."**
("İlətuş şərai" səh 601,Nəcəf;  Hurr Amili "Vəsailuş şia"c.18,səh 453; "əl-Məhasin ən-Nəfsaniyyə",səh 166-167)

Nemətullah Cəzairi yazır: **"Onların (Nasibilərin) öldürülməsi və mallarının mübah hesab edilməsi caizdir."** ("Ənvarun Numaniyyə"c. 2,səh 307)

Göründüyü kimi burada əsas diqqət şəri cəzadan qaçmağa yönəlib.Buna görə də şiə bir nəfər hər hansı bir sünnini zəhərləyərək,yandıraraq,elektrik vuraraq öldürə bilər.Bu şiələrin canlarının və mallarının qorunması üçün təqiyyə olduğu halda belədir.Təqiyyə ortadan qaldırıldıqda isə Əhli Sünnətə qarşı qətliam olacaqdır.

Tarixi baxımdan məlumdur ki,Abbasi dövləti sünni idi.Əhli Sünnətin hüsni zənni səbəbi ilə xəlifənin şiə bir vəziri vardı. Bağdad necə süquta uğradı?Monqollar bu xilafət paytaxtını necə işğal etdilər? Nə qədər müsəlman orada öldü?Bu hadisələrdə Tusi və şiə vəzir olan İbn Əlqəmənin rolu nə idi?

Aydın Əlizadə bu hadisələri rus dilində nəşr olunan "Təhlillər" kitabında belə təsvir edir: **"Bağdadın süqutu  əsas etibarı ilə sünni və şiə ixtilaflarının artması ilə əlaqədar idi. Hicri 655-ci ildə Bağdadda sünnilərlə şiələr arasında toqquşmalar oldu.Bundan sonra şiə vəzir ibn əl Əlqami gizli şəkildə Bağdada yaxınlaşmış Hulaqu xanla əlaqə**

**yaratdı.O,xanla görüşdü və qayıdanda xəlifə əl Mustəsimə dedi ki,Hulaqu Xan xəlifəyə toxunmaq istəmir və bir zamanlar Bağdadı idarə edən Səlcuq sultanları kimi davranmaq niyyətindədir.Buna inanan xəlifə Hulaqu xanın yanına öz yaxınlarını və elçilərini göndərdi.Monqollar elçiləri öldürdülər,sonra isə şəhəri mühasirəyə aldılar.Döyüş bir ay davam etdi.Nəhayət, xəlifə əl Mustəsim təslim olmaq qərarına gəldi.O,monqollara Şərəfuddin əl Cəuzini göndərdi ki,şəhəri təhvil verməyin qaydalarını müzakirə etsinlər.Səfər ayının dördü 656-cı ildə xəlifə,onun oğulları Əhməd,Əbdurrahmən və Mübarək,saray alimləri,sərkərdələr və digər vəzifəli şəxslər şəhəri tərk edərək Hulaqu xanla görüşə getdilər.Xanın çadırının yanında xəlifəni digər heyətdən ayırdılar və məcbur etdilər ki,əmr olunsun ki,bütün şəhər əhli tərki silah olunsun.Elə ki,şəhər əhli tərki silah olundu, monqollar şəhərə daxil oldular və boyun olduqları bütün öhdəlikləri pozdular.**

**Şəhərdə misli görünməmiş zülm,qarət,soyğun və kütləvi qətllər başladı.Şəhərin demək olar ki,bütün əhalisi qılıncdan keçirildi.Bağdad tamamilə talan edildi,şəhər kitabxanası yandırıldı,minlərlə kitablar yandırıldı.Səfər ayının 14-ü, 656-cı ildə xəlifə öldürüldü.Qırx gündən sonra monqollar sağ qalmış şəhər əhalisinin canlarına toxunmayacaqlarına söz verdilər.Amma,artıq şəhərdə qorxunc epidemiya yayılmışdı ki,bu daha minlərlə insanın ölümünə səbəb oldu.Bu hadisələrdən sonra Hulaqu xan Əli Bahaduru şəhər valisi olaraq təyin etdi və öz dövlətinin paytaxtına getdi.Vəzir İbn əl Əlqami Bağdadda qaldı."**

Tədqiqatçı şiə əllamə sayılan Mirzə Muhəmməd Baqir əl Musəvi əl Huvənsari əl İsfəhani kitabında Tusinin bioqrafiyyasından danışır və yazır: **"Kəlamçı,hakim,elm dəryası və uca bir şəxsiyyətdir.Bilinən və məlum hadisələrdən biri də Tatar və Monqolların əzəmətli sultanı olan Hülaqu xana İranda vəzir olma istəyi ilə insanları irşad,islah etmək,zülm və haqqsızlığın qarşısını alaraq Abbasilərin zülmünə son verərək,o azğın tağutların üzərində qətliam etmək idi.Onların mənfur qanlarını öncə Dəcləyə,oradan da fəcir insanların yurdu olan Cəhənnəmə çay kimi axıtmaq məqsədi ilə hazırlıqlar görən Sultanın qafiləsində əminamanlıq yurdu olan Bağdada gəlməsi məlum bir**

**hadisədir."** ("Rəvdətul Cənnət fi əhvalil uləma vəs sədat"c.1,səh 300-301,Qum)

"Hukumətul İslamiyyə" kitabında (səh 142) Xomeyni ibn Yəqtinin və Tusinin misalını fəqihin xidmətə qəbul olmasına nümunə olaraq qeyd edir və yazır: **"Təqiyyə şərtləri bizdən birinin sultanın xidmətinə girməsinə münasibdirsə,bundan çəkinməmək lazımdır.Fəqihin idarə etmədə işinə bəraət İbn Yəqtinin misalına bənzər yalnız çox ciddi səbəb olmalıdır.Hansının ki,xidmətə hazır olmasındakı səbəbləri yaxşı məlum idi.Həmçinin, Nəsrəddin Tusinin əməlləri ki,İslam və müsəlmanların qələbəsi kimi hamıya məlum olan çox yaxşı nəticələrə gətirib çıxartmışdı."**

Əli ibn Yəqtinin hadisəsini isə Nemətullah əl Cəzairi kitabında belə vəsf edir: **"Xəbərlərdə varid olduğuna görə Əli ibn Yəqtin xəlifə Harun ər Rəşidin vəziri idi.O,bir dəfə müxaliflərdən (sünnilərdən) ibarət olan dəstənin həbs olunmasına qərar verdu.İbn Yəqtin möhtərəm şiələrdən idi. O, nökərlərinə əmr etdi ki,binanın damını həbs olunanların başına uçursunlar.Zindanda olanlar hamısı öldülər və onlar 500 nəfərə yaxın idilər.Vəzir ibn Yəqtin bu qanın məsuliyyətindən xilas olmaq istədi və imam Kazıma məktub yazdı.Cavabında imam yazdı: "Əgər sən onları öldürməmişdən qabaq mənim yanıma gəlsəydin, onların qanlarına görə sənə heç nə düşməzdi. Bunu etmədiyinə görə isə kəffarə olaraq onların hər birinin əvəzinə bir illik keçini qurban kəsməlisən.Həqiqətən, keçi onlardan daha xeyirlidir."**
Davamında müəllif Cəzairi yazır: **"Bu kəffarənin necə az olduğuna fikir ver! Bu köpəyin kəffarəsi olan 20 dirhəmə və onların qardaşı Yəhudi və Məcusinin kəffarəsi olan 800 dirhəmə belə dəymir.Axirətdəki halları isə daha bərbaddır."** ("Ənvəru ən Numaniyyə" c.2,səh 308,Təbriz)
Bu rəvayyəti Muhsin əl Muallim "Nəsb və Nəvasib"adlı kitabında (səh 622-də ,"Darul Hadi" Beyrut) nasibi olan sünnilərin öldürülməsinə dəlil olaraq gətirmişdir.

Həmçinin, Doctor Nəccah əl Tainin yazdığı "əl Vəhhabiyyun həvaric umm sunnə" kitabında (səh 280-dən sonra) "Nasibi" sözü və bununla kimlərin qəsd olunduğunu yazır:
İmam Əbu Abdullahdan rəvayyət edilmişdir: **"Allah Təala köpəklərdən daha şərli məxluq yaratmamışdır və Nasibilər bizim üçün Allah qatında köpək hökmündədirlər...."**

Muhəmməd Yusif ən Nəcrami kitabında yazır: **"Xomeyni hökümətinin Əhli Sünnə camaatına qarşı göstərdikləri kəskin münasibət və icraatları onlara görə adi bir şeydir.Çünki,tarix boyu bu ümmətin başına gələn əksər faciələrin kökündə şiəliyin dayandığının şahidi olmaq olar."**("əş Şia fil mizan" səh 7)
Şiəlik Əhli Sünnətə qarşı kin,düşmənçilik və nifrət bəslədiyi halda təqiyyə ilə onlara qarşı saxta gülərüzlülük münasibəti göstərir.Bu hal isə öz növbəsində sünnilərin şiəliyin həqiqi mövqeyini qavramaqlarına mane olur.Bu baradə Əbdulmunim ən Nəmr belə yazır:
**"Lakin,biz ərəb sünnilər oyanmadıq.Güman etdik ki,uzun illər keçdikdən sonra İslamın təsiri ilə bu ortadan qalxacaqdır.Heç birimizin ağlına bu gəlmədi.İranlıların sevincinə biz də şərik olduq.Xomeyninin bu tarixi problemlərlərdən vaz keçəcəyinə,İslam ümmətinin müsəlman lideri olaraq,ümmətin dirçəlməsində öncüllük edəcəyinə inandıq.Bunlar İslam və müsəlmanların mənfaətinə cavab verirdi.İranlı ilə ərəbin,sünni ilə şiənin heç bir fərqi yox idi.Amma,daha sonra baş verən hadisələr bizim xəyallara və utopiyalar dənizinə qərq olduğumuzu göstərdi.Beləki,gənclər və insanlarımızdan bir çoxu baş verən pis hadisələr qarşısında hələ də oyanmayıblar."** ("əl Muamərə...iləl Humeyni"səh 118,Qahirə)

Bunu xüsusi ilə qeyd etmək lazımdır ki,Şiəliyin Əhli Sünnətin dindarlarına qarşı düşmənçiliyi böyükdür.Onların həqiqətini və təqiyyələrini bilənlərə qarşı düşmənçilyi isə daha da şiddətlidir.Şiələrin hakim mövqeyə gəldiyi zaman müxaliflərə nələr edə biləcəklərini bilmək istəyirsən?
Bu sualın cavabını alimləri Cəfər Muhəmməd ibn Həsən ət Tusi məşhur fiqh kitabında verir: **"Hər hansı bir hədd və ya hökmü tətbiq**

**etmək üzrə zalim bir idarəçi tərəfindən vəzifəyə gətirilən kimsə bu işə haqq sultan tərəfindən gətirildiyinə inansın və hökmləri tətbiq etsin.Özünə müxalif birinə qarşı hədd cəzası tətbiq etmə imkanı varsa, bunu etsin.Çünki,bu ən böyük cihaddır."** ("ən Nihayə fi mucərrədul fəqih vəl fətava" səh 302; "Darul kitab" nəş.Beyrut hic.1400)

Şiələrin yuxarıda göstərilən sitatlardan bəlli olduğu kimi sünnilərə qarşı mövqeyi belədir.Bu mövqe şiə dövləti olmadığı zaman yəni,təsadüf nəticəsində hakim mövqeyə sahib olduqları zaman onların bizə qarşı olan münasibətdir.Şiə dövlətində isə bu mövqenin necə olduğunu siz düşünün! Onların şərrindən Allaha sığınırıq!

## 4. Əhli Sünnətin mallarının mübah olması.

Bu məsələdə nəql etdiklərimiz sitatlara əlavə olaraq,Əbu Abdullahdan rəvayyət edilən bu hədisi də qeyd etmək olar: **"Tapdığın yerdə nasibinin malını al və onun xümünü bizə ödə."**

Bu rəvayyəti şiənin böyük alimi Əbu Cəfər ət Tusi "Təhzibul əhkam" (4/122)-da,Feyz əl Kəşani "əl Vafi"(6/43)-də və bir çox alimləri kitablarında nəql etmişlər.

Bu rəvayyəti Muhsin əl Muallim "ən Nasb vən Nəvasib" adlı kitabında Nasibilərin (Əhli Sünnətin) mallarının alınmasının caiz olduğu məsələsində dəlil olaraq gətirmişdir. ("ən Nasb vən Nəvasib" səh 615, "Darul Hadi"Beyrut)

Bu rəvayyətin təsiri ilə şiələrin ən böyük müctəhidlərindən olan Ruhullah Xomeyni kitabında belə fətva verir: **"Ən mötəbər rəyə görə özlərindən alınan qənimət və bu qənimətdən alınacaq xümsə görə nasibilərin hərb əhli hökmündə olmasıdır.Hətta,zahir olan budur ki,harada və necə olurlarsa olsunlar mallarının alınması caiz,xümslərinin ödənilməsi isə vacibdir."** ("Təhrirul vəsilə" c.1,səh 352)

Hiylə,oğurluq,aldatma,düşmənçilik və digər haram olan əməlləri Xomeyni **"harada və necə olurlarsa olsunlar"** sözləri ilə Əhli Sünnətə qarşı caiz hesab edir.Bəzi sünni zavallılar Xomeynini təbrik etmək üçün İrana getmişdilər.Digər qismi isə o öləndə təziyyə üçün ora getmişdilər.Bu adamlar təəsüf ki,Xomeyninin nə yazdığını oxuyur,nədə nasibi və nasibilər kimi ifadələri ilə kimləri qəsd etdiyini bilmir,onun Tusinin əməllərini İslam və müsəlmanların zəfəri kimi dəyərləndirdiyindən və onu ucaltığından xəbərsizdirlər.Bunlar bu zavallıların bilmədikləri çox az şeylərdən bəziləridir.

Sanki,cahilliyə doğru yarış içərsindədirlər.Bunlardan Allaha sığınırıq!

Bəli.Bunlar zavallı adamlardır.Şiəliyə görə nasibi olan sünninin qanı və malı onlara görə icma ilə mübahdır. Şiə fəqihi və mühəddisi şeyx Yusif əl Bəhrani məşhur kitabında yazır: **"Nasibi haqqında müsəlman sözünün istifadə edilməsi,müsəlman olduqlarına görə mallarının alınmasının caiz olmaması fikri, haqq tayfanın icma etdiyi "Nasibinin kafir və nəcis olduğu,mallarının alınmasının caiz,hətta öldürülə biləcəkləri" hökmünə müxalifdir."** ("əl Hədaiqun nadira" 12/323-324)

Nemətullah Cəzairi yazır: **"Onların (Nasibilərin) öldürülməsi və mallarının mübah hesab edilməsi caizdir."** ("əl-Ənvar ən-Numəniyyə"c. 2,səh 307)

Mühəddis Yusif əl Bəhrani kitabında bunları qeyd edir: **"Əbu Saleh,ibn İdris və Səllar bu fikirdə olmuşlar.Zahir olan haqq da budur.Çox saylı xəbərlərə görə müxaliflərin kafir və nasibi olmaları,şirkə düşmələri,mallarının və qanlarının halal olduğu məsələsi sərih olaraq başa düşülməkdədir.Beləki,bir başqa kitabda biz bu məsələni heç bir şübhə yeri olmadan açıqlamışıq."** ("əl Hədaiqun nadira"10/360)

## 5. Şiəliyə görə Əhli Sünnət nəcisdir.

Şiənin təqlid mərcii olan Ayətullah Muhsin əl Hakim belə yazır: **"əl Muqənnətul vəch"də olanları nəql etdikdən sonra "Təhzib"də ifadə edildiyinə görə Əhli-haqqa müxalif olan kimsə kafirdir.Dəlil çatmayan kimsələr istisna olmaqla yerdə qalanlar haqqında küffar hökmünün tətbiqi labüddür....Bu necə olmasın ki,Hillidən bəzən nəcis,kafir olduqlarına dair icma və hətta mütəvatir nasslar varid olmuşdur....Dördüncüsü,nasibinin nəcis olduğuna dair qeyd etdiymiz icma...."** ("Mustəmsiqul urvətul vusqa" 1/392-393,Nəcəf)

Müasir alimlərindən Əbul Qasim Musəvi əl Xoyi "Minhəcus salihin" kitabında yazır: **"...Mürtəd ilə,hərb əhli,qulat və nasibi kafir arasında heç bir fərq yoxdur."** ("Minhəcus salihin" 1/116; Nəcəf)

Köhnə təqlid mərcii olan Muhəmməd Kazım ət Təbatəbai "Urvətul vusqa" adlı kitabında yazır: **"Qulat,xarici və nasibilərin nəcis olduğu məsələsində heç bir ixtilaf yoxdur."**( "Urvətul vusqa" 1/68,Tehran)

Əllamə Hilli "Nihayətul əhkam fi mərifətul əhkam"adlı kitabında yazır: **"Xaricilər,qulat və nasibilər Əhli beytə düşmən olanlardır ki,bunlar nəcisdirlər."**(1/274; Beyrut)

Ruhullah Xomeyni "Təhrirul vəsilə" kitabında yazır: **"Nasibilər və xaricilər -"Allah onlara lənət etsin" isə heç bir ixtilafsız nəcisdirlər."** ("Təhrirul vəsilə" 1/118; Beyrut)

Həmin səhifədə Xomeyni yazır: **"Biz onların qətiyyətlə kafir olduqlarını demişdik.Hətta,bəzi vəziyyətlərdə onların öldürülməsi vacibdir."**

Bir sonrakı səhifədə (səh 119) Xomeyni yazır: **"Ancaq şiə firqələrindən olan İsna-əşarilər imam olduqlarına inanmadıqları digər imamlara düşmən olub,onları söymədiyi müddətcə təmizdirlər.Əgər belə bir şey etsələr,onlar da digər nasibilər kimidirlər."**

İsna-əşarilərin şiə firqələrindən olduğuna görə necə də təmiz qəbul edildiyinə diqqət et! Halbuki,Əhli Sünnəti heç zikr etmir.Çünki,onlara görə sünnilər onsuz da nəcisdirlər.
Şeyx Səduq əl Qummi "Əməli" kitabında imam Sadiqdən hədis rəvayyət edir: **"Heç şübhəsiz ki, mömin nasibi olmaması xaricində ixlaslı olanlara şəfaət edəcəkdir.Nasibi olana bütün peyğəmbərlər,mələklər belə şəfaət etsələr də şəfaətləri qəbul edilməz."** ("Əməli" səh 252,Beyrut)
Əllamə Məclisi bu rəvayyəti "Biharul Ənvar"da (8/41)-də zikr etmişdir.

Həmçinin, şeyx Səduq bu kitabının eyni səhifəsində Əbu Abdullahdan belə nəql edir:
**"Nuh (ə) gəmiyə iti və donuzu mindirmiş,vələduz-zina və bundan daha şərli olan nasibini mindirməmişdi."**

Ayətullah seyyid Abdullah əl Əla Musəvi əs Səbzvari belə deyir: **"...Kafir olması məsələsində mürtəd,zimmi,xarici,qulat və nasibi arasında heç bir fərq yoxdur."** ("Camiul əhkam"səh 57; Beyrut,1992 il)

Ayətullah Hacı Seyyid Muhəmməd Rza Kəlbəyqani yazır: **"14 məsumdan birinə düşmən olan vəya söyən kimsə İslam çərçivəsində olsa belə nəcisdir.İmam Əlinin də uluhiyyətinə inanan qulat kafir və nəcis hökmündədir.Eyni ilə xarici və nasibilər də eyni hökmdədirlər."**("Muhtəsarul əhkam" səh 9; Qum)

Onların nasibiləri necə vəsf etdiyinə diqqət edin!Nasibilər tarixdə məlum olan,günümüzdə olmayan kimsələr idilər.Bununla bərabər xariciləri də qeyd edirlər.Bununla onlar Əhli Sünnəti qəsd edirlər. Bunun isbatı yuxarıda nəql edilən sitatlardır.

Şeyxləri Yusif əl Bəhrani kitabında yazır: **"Məna baxımından mütəvatir xəbərlərdən çıxan nəticəyə görə bu sahədə olan iddiaların zəif və vəhn olması gizli deyildir. Beləki,məlum risalədə müxaliflərin kafir,nasibi və nəcis olduğu məsələsini izah etmişdik.Bu iki xəbərin nə sənəd,nə də dəlalət baxımından o xəbərlərə qarşı təsiri ola bilməyəcəyinə şübhə yoxdur.Bunların ya təqiyyəyə aid edilməsi ki,bu ravilərin halından bəlli olur,yada müxaliflərin xaricində ki,kimsələrə şamil edilməlidir.Eyni zamanda əshabımız arasında məşhur olan görüşə görə qulatın da xarici və nasibilər xaricində qalanlara şamil edilməsi lazımdır.Çünki,əshabımız bunların hamısının kafir olduğu məsələsində ixtilaf etməmişlər."**("Şərhu risalətis səlatiyyə"səh 334, Beyrut,1988 il)

Nemətullah Cəzairi yazır: **"Xəbərlərdə nasibinin nəcis olub yəhudi,xristian və məcusilərdən də daha şərli olduğu barədə imamiyyə alimlərinin icmasını qeyd etmişdik.....Təqlid mərcii olan Mirzə Həsən əl Hairi dediyi kimi: "Nəcasətlər on ikidir.....Kafirlər qismindən olan nasibilər."** ("əl-Ənvar ən-Numəniyyə"c. 2,səh 306,Beyrut)
Bu sözləri bir çox müasir təqlid mərciiləri də söyləmişlər.

## 6. Əhli Sünnətin yanında təqiyyə ilə əməl etməməyin haram olması.

Onlar özlərindən olan kimsələrin zərərini dəf etmək və intiqam almaq üçün Əhli Sünnə sultanlarının xidmətinə can atmışlar.Məzhəbləri buna onları təşviq edir.Hurr Amili Muhəmməd ibn Əli ibn İsanın imam Əbul Həsənə Abbasi xəlifələrinin xidmətinə girməsi haqqında yazdığı məktubu nəql edir: **"Təhlükə olmadığı müddətcə Allah üzrü qəbul edəndir.Bunun əksi isə məkruhdur….Ona mənə verdiyi sualın cavabında yazdım: "Mənim onların əmrinə girmək haqqında fikrim,düşmənin başına bəla gətirmək və onlara yaxınlaşıb,intiqam almaqdan yanadır.Kim belə bir şey edərsə,haram iş görməz,əksinə savab və əcir qazanar."** ("Vəsailuş şia" 12/137)

Abbasi oğullarının xidmətinə girməklə, məqsədin onların başına bəla gətirib,intiqam almaq olduğuna dair imamın sözlərinə diqqət edin!

Hurr Amili Səfvan ibn Mehran əl Cəmaldan nəql edir: **"İmam Əli ibn Əbul Həsənin yanına girdim.Ey Səfvan! Səndə olan hər şey xoş və gözəldir,bir şeydən başqa…dedi.Sənə fəda olum,o nədir? dedim. İmam dedi: "Dəvələrini bu adama (xəlifə Harun ər Rəşid) kirayə verirsən." Səfvan dedi: "Vallahi,ona sevinc və əylənmək qəsdi ilə verməmişəm….." Mənə dedi: "Kirayəni ödəyənə qədər onlarla qalmaq istəyirsən?" Dedim: "Bəli" Dedi: "Kim onlarla olarsa,onlardandır və gedəcəyi yer oddur." Səfvan dedi: "Getdim və dəvələrimin hamısını satdım.Bu xəbər xəlifənin qulağına çatdıqda məni çağırdı və dedi: "Ey Səfvan! Qulağıma çatdığına görə dəvələrini satmısan.Mən sənə bu fikrin kim tərəfindən verildiyini bilirəm.Bu fikri sənə Musa ibn Cəfər verib." Dedim: "Musa ibn Cəfərdən mənə nə!" O,dedi: "Vallahi,əgər yaxşı dostluğun olmasa idi səni öldürərdim."** ("Vəsailuş şia" 12/131)

## 7. Əhli Sünnətin ölülərinə cənazə namazı zamanı lənət oxumaları

Şeyx Mufid "əl Muğniyyə"kitabında yazır: **"Möminlərdən heç kəsə vilayət məsələsində haqqa müxalif olanların cənazələrinin yuyulmasında və namazlarında iştirak etmələrinə icazə verilmir.Bunu yalnız zərurət halında təqiyyə edərək etmək olar.....Cənazə namazında ona lənət oxumaq və onun üçün dua etməmək lazımdır."** (səh 85,Muəsəsat nəşri İslami,Qum)

Şeyxut-taifə ləqəbli Əbu Cəfər ət Tusi "Təhzibul əhkam" kitabında yazır: **"Bu məsələnin izahı belədir: "Əhli haqqa müxalif olan kimsə kafirdir.Deməli,hökm etibarı ilə kafir ilə eyni səviyyədə olmalıdır.Kafirin yuyulması caiz olmadığına görə eyni şəkildə müxaliflərin də yuyulması caiz deyildir.Cənazə namazının qılınması məsələsi isə Peyğəmbər (s.a.s) və imamların münafiqlərin cənazə namazlarını qılmaları çərçivəsində dəyərləndirilir.Müxaliflərin cənazə namazlarının necə qılınacağı və kafirin yuyulmasının caiz olmadığının dəlilini isə sonrakı səhifələrdə izah edəcəyik."** ("Təhzibul əhkam" c.1,səh 335, 3-cü nəşr,Tehran)

Kuleyni yazır: **"Əbu Abdullahın dediyinə görə Abdullah ibn Ubey ibn Səlul öləndə Peyğəmbər (s.a.s) onun dəfnində iştirak edirdi. Ömər Rəsulullah (s.a.s)-a dedi: "Məgər Allah sənə onun qəbri üstündə dayanmağı qadağan etməmişdir?" Peyğəmbər (s.a.s) cavab vermədi. Ömər yenə soruşdu: "Ya Rəsuullah! Məgər Allah sənə onun qəbri üzərində dayanmağı qadağan etməmişdir?" Belə olduqda Peyğəmbər (s.a.s) dedi: "Heyıf ki,sən mənim nə dediyimi anlamırsan.Mən dedim ki,ilahi onun içinə od sal,qəbrini odla doldur,onu Cəhənnəmə vasil elə"** ("Kafi-furu" "Kitab əl cənaiz" fəsli c.3,səh 188,İran)

Bu rəvayyəti Tusi "Təhzib"(3/196)-də,Hurr Amili "Vəsailuş şia" (2/770)-da **"Müxaliflərin cənazələrinin necə qılınacağı"** fəslində nəql etmişlər.

Kuleyni özünün "Kafi" kitabında Əbu Abdullahdan belə rəvayət edir ki, münafiqlərdən bir kişi ölürmüş, Hüseyn ibn Əli cənazə ilə birlikdə yola çıxır.Onun qarşısına bir mövlası çıxır, imam Hüseyn ondan soruşur: **"Hara gedirsən?" O deyir: "Bu münafiqin cənazəsindən qaçıram ki, onun üçün namaz qılmayım." İmam ona deyir: "Sən namaz zamanı mənim sağımda dayan və məndən nə eşitsən, sən də elə de." Hüseyn təkbir duasında belə söyləyir: "Allahü əkbər! Allah, sən bu qulun filankəsə min dəfə eyni, bir-birindən fərqlənməyən lənətlər yağdır. Qullarından birini cəzalandır, onu Cəhənnəm odunun qızmarına at, ona Özünün ən şiddətli əzabını daddır.Çünki, o sənin düşmənlərinə dost, övliyalarına düşmən olmuşdur. O, sənin Peyğəmbərinin ailəsinə nifrət etmişdir."** ("Kafi" "Kitab əl-cənaiz" , "Düşmənçilik edənlər" fəsli, c.3,səh 189, İran)
Bu hədisi həmçinin, Tusi "Təhzib",Şeyx Səduq "Mən lə yəhduruhul fəqih",Hurr Amili "Vəsailuş şia" kitablarında nəql etmişlər.

Muhəmməd ibn Həsən ət Tusi "Təhzib"(3/316)-də yazır: **"Cənazə namazı içərsində olan dörd təkbir təqiyyə ilədir.Çünki,bu qayda müxaliflərin məzhəbidir..."**
Bu sözlər ilə Əhli Sünnətin qəsd olunduğu aşkardır.Çünki,sünnilər cənazə namazında dörd təkbir gətirirlər.
Hurr Amili "Vəsailuş şia" kitabında **"Müxalifə (sünniyə) cənazə namazı qılmaq"** fəslində yazır: **"Muhəmməd ibn Muslimdən nəql olunur ki,imam dedi: "Əgər mərhum haqqı inkar edənlərdən idisə onda de: "Ey Allah! Onun qarnını və qəbrini odla doldur.Ona əqrəb və ilanları müsallat elə!"** ("Vəsailuş şia" 2/771)
Bu rəvayyəti Yusif əl Bəhrani "Hədaiq" (10/414)-də və Muhəmməd Həsən ən Nəcəfi "Cəvahirul kəlam" (12/48)-da nəql etmişlər.

Şeyx Səduq kitabında Əbu Abdullahdan hədis rəvayyət edir: **"Allahın düşməninin cənazə namazını qılarkən belə de: "Allahım!Biz bunun**

**sənə və Rəsuluna düşmən olduğundan başqa bir şey bilmirik.Allahım onun qəbrini,qarnını odla doldur!Onu tezliklə Cəhənnəmə göndər!Çünki,sənin düşmənlərinə dost,dostlarına isə düşmən olardı.Peyğəmbər (s.a.s)-in Əhli beytinə də düşmən idi.Allahım! Onun qəbrini daralt,onu ucaltma,onu təmizləmə de."** ("Mən la yəhduruhu əl-fəqih" 1/105)
Bu rəvayyəti Hurr Amili "Vəsailuş şia"(2/77)-da **"Müxaliflərin cənazə namazı necə qılınar"** fəsli altında Bəhrani "əl Hədaiq"(c.10,səh 414)-də,ən Nəcəfi isə "Cəvahir"-də (c.12,səh 49)-də qeyd etmişlər.

Yusif əl Bəhrani bu rəvayyəti zikr etdikdən sonra (səh 415) demişdir: **"Bu rəvayyətlərin hamısı görüldüyü kimi Əhli Sünnədən olan müxaliflər haqqındadır..."**

Həmçinin,o eyni kitabın başqa yerində yazır: **"On iki imama inanan möminin cənazə namazının qılınmasının vacib olması baradə heç bir fikir ayrılığı yoxdur.Eyni şəkildə xarici,nasibi,qulat və zeydi olan dindən zəruri olan etiqadlardan birinin əksinə etiqad edən adamın cənazə namazlarının təqiyyə xaricində qılınmasının caiz olmadığı xüsusunda da heç bir fikir ayrılığı yoxdur."** ("əl Hədaiq" 10/359)

Bəhrani başqa bir kitabında yazır: **"Dördüncü təkbirdən sonra mömin üçün dua ediləcəyi bilinməlidir.Mömin deyil və haqqa müxalif olandırsa, bəddua olaraq belə deyilir: "Allahım! Onun qarnını və qəbrini odla doldur.İlanları,əqrəbləri ona müsəllat elə."** ("Risalətus salətiyyə" səh 328)

Əbu Əhməd əl-Usfur əl-Bəhrani "Risalətus salətiyyə" kitabına yazdığı şərhdə (333-cü qeyd) Mufidin sözlərini qeyd etdikdən sonra yazır: **"Təhzib"də şeyx bununla razılaşmışdır.Sözlərinin sonuna qədər müxaliflərin kafir,hökmlərinin kafirlərin hökmü ilə eyni olması baradəki sözlərini davam etdirir.Əbu Saleh müxalifin cənazə namazının təqiyyə xaricində qılınmasının caiz olmadığını qəbul etmişdir.İbn İdris də inanclı bir adamın bu hökmdə olanların cənazə namazının qılınmaması rəyini qəbul etmişdir. Seyyid Murtəzanın**

**da müxaliflər haqqındakı hökmü bəllidir.Yəni,o onların küfrünə hökm etmişdir."**

Bilindiyi kimi inanclı insan dedikdə onlar on iki imama etiqad edən şəxsi nəzərdə tuturlar.
Mirzə Həsən Hairi əl Əhkaqi "Əhkamu fiş şia"adlı kitabında yazır:
**"Kitabı olsun,ya olmasın kafirlərin bütün qisimlərinin cənazə namazının qılınması caiz deyildir.Təqiyyə və zərurət xaricində bu müxaliflər üçün də keçərlidir.Dördüncü təkbirdən sonra cənazəyə lənət oxunar.Beşinci təkbir edilməz.....Cənazə namazı mömin birinə aiddirsə,beş təkbir almaq vacibdir.Əgər namaz müxalif və ya münafiq birinə məxsusdursa dörd təkbir alınar və dördüncü təkbirdən sonra cənazəyə bəd dua edilir."** ("Əhkamu fiş şia"c.1,səh 186-187; "Məktəbətu Cafər Sadiq" Kuveyt,1997 il)
Buna bənzər fətvanı Ayətullah Mirzə Əbdurrasul əl İhqaqi "Əhkəmuş şəria" (1/229) kitabında vermişdir.
Həmin bu Hairi əl Əhkaqi digər kitabında İranı fəth edən səhabələri vəsf edərək,yazır: **"Fars qadınlarının iffətinə göz dikən, quldur və şəhvət düşgünü olan bədəvi ərəblər**"("Risalətul İman"səh 232)

Nuri ət Təbərsi yazır: **"Şeyx Tusinin "Tibyan" əsəri araşdırıldığında bu əsərin tamamilə müxalifləri idarə etmək və onlarla yaxşı keçinmək niyyəti ilə yazıldığı məlum olacaqdır....Nuri Təbərsi davam edərək yazır: "Əli ibn Tavus "Sadus Səud" adlı əsərində bunları yazır: "Atam Əbu Cəfər ət Tusi "Tibyan" adlı kitabında yazdıqları ilə bizdə razıyıq.Onu bu fikirləri yazmağa təqiyyə qəsdi olmuşdur."** ("Fəsl əl-xitab"səh 38)

## 8. Əhli Sünnəti aldatmağa hesablanmış təqiyyə namazı.

Bəziləri şiələrin sünni imamlar arxasında namaz qılmalarına aldanırlar.Bu davranışı onların Əhli Sünnətə qarşı duyduqları yaxınlıq və pərəstişin dəlili hesab edirlər.Yuxarıdakı fəsillərdə izah edildi ki,onlara görə iman ancaq Əli (r.a) və övladlarının vilayətini qəbul etməklə tamamlana bilər və buna etiqad etməyənlərin əməlləri qəbul edilməyəkdir.İndi isə gəlin,onların daha açıq ifadələri ilə tanış olaq.
Mühəddis Hurr Amili məşhur "Vəsailuş şia"kitabında **"İmamların vilayəti qəbul edilmədiyi və imamlıqlarına inanılmadığı təqdirdə ibadətlərin batil olması"** adlı fəsil tərtib etmiş və bu fəsildə 19 hədis nəql etmişdir.
Bu hədislərdən biri də imam Baqirdəndir.Bu hədisdə imam şiələrinə deyir: **"Vallahi,Allah üçün sizdən başqa hacı yoxdur və sizdən başqasından da bu qəbul edilməyəcəkdir."** ("Vəsailuş şia" 1/90)
Hurr Amili daha sonra bu fəsildə 19 rəvayyəti nəql etdikdən sonra (səh 96) yazır: **"Bu baradə həqiqətən çox sayda hədis mövcuddur."**

Alim,fəqih,imamları olan Ayətullah Hacı Ağa Hüseyn Təbatəbai Burucərdi "Camiu əhadis şia" (1/426) kitabında **"Əməllərin qəbulunun imamların vilayəti və onların imamlığına inanma şərti ilə qəbul ediləcəyi"** başlığı altında fəsil tərtib etmiş və orada 78 rəvayyət nəql etmişdir.
Bu hədislərdən biri də Rəsulullah (s.a.s)-dan nəql edilir.Peyğəmbər (s.a.s) buyurub: **"Məni haqq ilə göndərənə and olsun ki,sizdən biriniz rükun ilə məqam arasında min il ibadət edərsə,sonra Əli və övladlarının vilayətini qəbul etməzsə,Allah onu başı aşağı Cəhənnəmə atacaqdır."** ("Camiu əhadisuş şia" 1/429)
Səhifə 431-də isə Əbu Həmzədən Əbu Abdullahın belə dediyini nəql edir: **"Sizə müxalif olan özünü ibadətə həsr etsə,ictihad etsə belə, "o gün bir çox üzlər qaralar" ayəsinin hökmündədir."**

Etiqadlarında sabit olan davranış bu şəkildədir.Hurr Amili "Vəsailuş şia"(5/388)-da **"Camaat imamının müxaliflərdən olması halında təqiyyə xaricində ona namazda uymanın caiz olmadığı"** adında bir fəsil tərtib etmişdir.
383-cü səhifədə isə **"Müxalifdən öncə fərzi əda etmənin,daha sonra onunla birlikdə namazı qılmanın müstəhəb olması"** adında fəsil ayırmışdır.
5/381-də **"Namazda müxalif kimsənin arxasında təqiyyə ilə namaz qılma və birinci səfdə durmağın müstəhəb olması"** adında fəsil ayırmışdır.
Həmçinin, Burucərdi "Camiu əhadis şia"(6/410) adlı əsərində **"Səhih etiqadlar mövzusunda müxalif olan kimsənin arxasında namaz qılmanın təqiyyə xaricində caiz olmamağı və təqiyyə səbəbi ilə camaatlarına qoşulmağın və onlarla bərabər ilk səfdə durmanın müstəhəb olması"**adlı fəsil tərtib etmişdir.

"Camiu əhadis şia" (6/418)-da Burucərdi **"Adamın fərz namazını vaxtında qılıb,daha sonra təqiyyə niyyəti ilə müxaliflə birgə namazı imam vəya camaat olaraq qılması vəya qılmadığı halda qılırmış kimi görsənməsinin müstəhəb olması"** adında fəsil tərtib etmişdir.
Ona görə də məşhur alimlərindən olan Əbul Qasim əl Xoyi "Müsəlmanların camaatı ilə birgə namaz qılmaq" haqqında suala belə cavab vermişdir: **"Təqiyyə ilə qılınarsa,səhihdir."** ("Məsail","Rudud" 1/26,Qum)

Ayətullah Muhəmməd Rza əl Musəvi Kəlbəyqani "müsəlmanların məscidində qılınan namaz" haqqında ona verilən suala belə cavab vermişdir: **"Onlarla birlikdə namaz qılmağı tərk etmək fitnə və ixtilafa səbəb olacaqsa təqiyyə ilə bunu etmək caizdir."** ("İrşadus sail" səh 38,Kuveyt)

"Camaatın sünni olan imamına namazda uymaq caizdir,yoxsa deyil?" sualına belə cavab verilir: **"Təqiyyə halında bu əməl caizdir və savabı böyükdür."** ("Məcməul məsail" 1/194,Kuveyt)

Xameneyi "Əcvibətul istiftat" adlı kitabında (səh 178,Beyrut) **"Əhli Sünnətin arxasında camaat namazı qılmaq caizdir?"** **sualına belə cavab verir: "Onların arxasında camaat olaraq namaz qılmaq ehtiyyati məsləhət baxımından caizdir."**

Ayətullah Kazım əl Hairi "əl Fətava muntəhabə" adlı kitabında (1/75,Kuveyt) **"Sünni qardaşlarımızın arxasında təqiyyə olmadan namaz qılmaq caizmi? İmam Xomeyninin həcc mərasimi zamanı sünnilər arxasında camaat namazı qılmanın mübahlığı haqqında fətvasının hökmü nədir?"** sualına belə cavab vermişdir: **"Caiz deyildir.Bu məsələnin imamın həcc mərasimi zamanına aid verdiyi fətva ilə qiyas etmək yersizdir."**

Həmin kitabda (səh 81)-də **"İslam birliyi şüarı sünni bir adamın arxasında namaz qılmağa səbəb ola bilərmi?"** sualına belə cavab vermişdir: **"Birlik və bərabərlik sünni adamın arxasında namaz qılmağa səbəb ola bilər.Lakin,ehtiyyata görə namazın yenidən qılınması məsləhətdir."**

Mirzə Həsən Hairi əl Əhkaqi "Əhkəmuş şia" kitabında yazır: **"Şiə olan biri onların (sünnilərin) camaatına qoşulub,onlara iqtida etmədən öncə evində namazı əda edə bilərsə və sonra onlarla birlikdə camaat namazına qoşula bilərsə vəya onlarla birlikdə qıldıqdan sonra yenidən qəza edə bilərsə bunları etsin.**
**Zərurət olmadığı halda təqiyyə ilə camaatlarına qoşularaq,ilk səfdə durmaq və zahirən onlara uymaq müstəhəbdir.Lakin,iqtida etmədən namazı tək başına da qıla bilər."** ("Əhkəmuş şia" 2/341-342)

Müsəlman qardaş! Bu fətvalarla sən şiələrin Əhli Sünnət arxasında qıldığı namazların sırf aldatmadan ibarət olduğunu öyrənmiş oldun.Bunu Ticani bu sözlərlə etiraf edir: **"Şiələr çox vaxt Əhli Sünnətlə birlikdə təqiyyə ilə camaat namazı qıldıqdan sonra oranı tez tərk edərdilər.Çox güman ki, evə qayıdıb,namazlarını yenidən qılırlar."**("Kullul Hulul ində alir rasul" səh 160; Beyrut)

Həmçinin,sünnilərin namazda sağ əli sol əlin üzərinə qoymaları,Fatihə surəsindən sonra amin demələri şiələrə görə namazı batil edən səbəblərdəndir.Lakin,onlar buna təqiyyə ilə edildikdə icazə vermişlər. Bu cür fətva verənlər:
1-Ruhullah əl Musəvi əl Xomeyni -"Təhrirul vəsilə" (c.1,səh 186,190)
2-Ayətullah Seyyid Abdullah Səbzvari - "Camiul əhkam" (səh 92-93)

**9. Əhli Sünnətə zəkat vermənin caiz olmaması.**

Şiə alimləri zəkatın müxaliflərə verilməsini haram hesab etmişlər.Ayətullah Sistani "Minhəcus salihin"adlı kitabında (c.1,səh 373) yazır: **"Kafirə zəkat verilməz.Müxalif də belədir."**
Həmin yerdə yenə yazır: **"Müxalif biri özündən olanlara zəkat verib,daha sonra şiə məzhəbinə keçərsə,zəkatı təkrar verməlidir.Əgər möminə (şiəyə) vermişsə bu kifayət edər."**

Şiələrin təqlid mərciilərindən olan "Ayətullahlar" kitablarında "Zəkatın kimlərə verilməsi" fəslində eyni fətvaları vermişlər.Bunlardan bəziləri aşağıdakılardır:

1- Ayətullah Muhəmməd Hüseyn Şirazi "əl məsailul İslamiyyə"
2- Ayətullah Xomeyni "Təhrirul vəsilə"
3- Ayətullah Mirzə Əbdurrasul əl İhqaqi "Əhkamuş şəria"
4- Ayətullah Mirzə Həsən əl İhqaqi "Əhkamuş şia"
5- Ayətullah Əli əl Qəravi "Mucuzə fətaval mustənbəta"
6- Ayətullah Muhəmməd Fazil Lənkərani "əl Əhkamul vadihə"
7- Ayətullah Muhəmməd əl Kəlbəynaqi "Hidayətul ibad"

## 10. Müxaliflərin qeybətinin edilməsinin caiz olması.

Böyük müctəhidlərindən olan Ruhullah Musəvi Xomeyni kitabında yazır: **"Zahir olan odur ki,qeybətin haramlığı mömin üçün olduqda keçərlidir.Buna görə də müxalifin qeybətini etmək caizdir."** ("Məqasibul muharrəmə" 1/249; Qum)
Onlara görə qeybətin haramlığı on iki imami etiqadında olanlara xasdır.
Ayətullah Seyyid Əbdulhüseyn Dəstağeyb yazır: **"Bu bilinməlidir ki,qeybətin haram olması möminə yəni,həqiqi inanc əsaslarına inanan kimsəyə məxsusdur.Bu inanclardan biri də 12 imama etiqaddır.Ona görə də müxaliflərin qeybəti haram deyildir."** ("Zunubul kəbira" 2/267 "Darul İslamiyyə"nəşr.Beyrut,1988 il)
Xomeyninin ən yaxın silahdaşı olan 1983-cü ildən inqilab rəhbərliyini öhdəsinə alan Seyyid Dəstağeybin sözləri budur.Şiəliyə görə on iki imami əqidəsində olmayan hər kəsin qeybəti edilə bilər.

Muhəmməd Həsən ən Nəcəfi yazır: **"İstənilən halda qeybətin haramlığı imamların birini belə inkar edən digər kafirlərə və müxaliflərə deyil,sadəcə 12 imam etiqadında olan möminlərə xas olduğu aşkardır."** ("Cəvahirul kəlam" 22/63)

Muhəmməd Həsən ən Nəcəfi bu kitabın başqa bir yerində belə yazır: **"Hər halda İslam və iman küfrü baxımından müxaliflərin müşriklərin sırasında olması aşkardır.Əsrlər boyunca,müxtəlif ölkələrdə avamı və alimi ilə şiələr müxaliflərin qeybətini etmişlər.Belə ki,bu iş şiəliyə görə itaətlərin ən əfzəli,Allaha yaxınlaşma məqsədi ilə edilən əməllərin ən yaxşılarındandır. Bəzilərindən rəvayyət olunduğu kimi bu məsələdə icma hasil olduğu iddialarında heç bir qəribəlik də yoxdur.Hətta,bu əməlin qəti**

**zərurətdən olması iddiası da mümkündür."** ("Cəvahirul kəlam" 22/62)

Ayətullah Əbul Qasim əl Xoyi "Misbah əl fuqaha" kitabında yazır: **"Onun sözü və sözünün mənası budur ki,mömininin arxası ilə qeybət etmək olmaz."**
**Deyirəm: "Mömindən qəsd olunan Allaha,elçisinə,qiyamət gününə və 12 imama inananlardır ki,onlardan birincisi Əli ibn Əbu Talib və sonuncusu Mehdidir.Allah bizləri onun tərəfdarları və köməkçilərindən etsin.Bunlardan birini inkar edənin qeybətini etmək və onun haqqında pis danışmaq caizdir və bunun bir sıra səbəbləri vardır.**

- **Birinci səbəb: Hədislərdə,dua və ziyarətlərdə müxaliflərin lənətlənməsi,onlardan uzaqlaşma və onların çoxlu təhqir olunmaları qəti olaraq sabit olmuşdur.Bu onların qeybətini etmənin caizliyini göstərir.Çünki,onlar bidət və şübhə əhlidirlər."**
- **Bundan başqa onların küfründə heç bir şübhə yoxdur.Axı,imamlardan birinin belə vilayətini və imamətini inkar etmək,digərlərinin qanuni xəlifəliyinə inanmaq və s.küfr və bidətə aparan səbəblərdir.Bunun sübutu vilayəti inkar edənlər haqqında olan çoxsaylı xəbərlərdir** ("Misbah əl fuqaha" 2/11; "Darul Hadi" Beyrut)

Ayətullah Əbul Qasim əl Xoyinin fətvalarının olduğu "Minyətus sail" adlı kitabda (səh 218,Beyrut) ona verilən suala o belə cavab verir: **"Bəli,müxalifin qeybətini etmək caizdir.Qeybəti caiz olmayan mömindən murad əsl mənası ilə olan mömindir."**

Şiələr Peyğəmbər (s.a.s)-dən belə bir rəvayyət nəql etmişlər: **"Məndən sonra bidət və şübhə əhli kimsələr görəcəksiniz.Onlardan uzaq olduğunuzu izhar edin.Onları çox söyün,haqqlarında çox danışıb,hekayələr (qeybət) nəql edin.Belə edin ki,İslamda fəsad çıxarma arzuları olmasın və insanlar onlardan çəkinsin."**

Bu rəvayyəti alimləri Hurr Amili "Vəsailuş şia" (11/508)-da nəql etmişdir.Həmçinin,alimləri Sadiq əl Musəvi "Nəhcul intisar" adlı kitabında imam Səccaddan bu rəvayyəti nəql etmiş və 152-ci haşiyədə bu sözləri yazmışdır: **"İmam Səccad zalımlardan və İslam ümmətini istismar edən kimsələr olan bidət əhli haqqında, onlardan uzaq olmağı, söyməyi, barələrində pis şayiələr yaymağı,qeybət və iftira növündən olan bütün əməlləri caiz görmüşdür…"**

Söymək,pis şayiələr yaymaq,iftira atmaq,qeybət etmək kimi İslamla əlaqəsi olmayan bu inanclara diqqət edin!!!

Bunlar sadə müsəlmanların da bu üslubları öyrənməsini və tətbiq etməsini istəyirlər.Bu metodu Əhli Sünnətin böyükləri və alimləri haqqında geniş şəkildə tətbiq edirlər. Beləki,Nemətullah Cəzairi kitabında yazır: **"Ömərin arxasında xəstəlik var idi. O yalnız kişinin sperması ilə sənğiyirdi"** ("Ənvəru Numaniyyə" c.1,səh 63)

Həmçinin, Ömərin Fatimənin evini yandırması yalanını da yaymışlar.

İslam düşmənlərinə qarşı dəlil,dürüstlük,ədalət və insafla qələbə çalmışdır. Yoxsa, söyərək, şayiələr yayaraq,iftira ataraq zəfər qazanmamışdır. Allah Təala buyurur: ***"Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır."*** (Maidə 8)

## 11. Şiəliyə görə haqq din Əhli Sünnətin olduqları yola müxalif olmaqdır.

Hurr Amili Əbdurrəhman ibn Əbu Abdullahın Cəfər Sadiqdən belə rəvayyət etdiyini yazır: **"Əgər siz iki müxtəlif və bir-birinə zidd hədislə rastlaşsanız,bunu Allahın kitabına ərz edin.Qurana müvafiq olanı götürün,ona zidd olanı tərk edin.Allahın kitabında heç nəyə rast gəlməsəniz bunu avamın xəbərləri ilə tutuşdurun.Əgər onların hədisləri ilə uyğun gəlsə onu atın, onların hədislərinə zidd olsa (onda) götürün"** ("Vəsailuş şia" 18/84)
İmamın müxalif dedikləri avamdan məqsəd Əhli Sünnətdir.

"Kafi" kitabının müqəddiməsində yazılır:
**"Sünnülərin (müxaliflərin) dediyi ilə müvafiq olanı atın.Çünki,həqiqət onlara müxalif olmaqdadır"** ("Kafi" müqəddimə səh 8-9)

Kuleyni "Kafi" kitabında bu baradə uzun bir rəvayyət nəql edir.Orada deyilir: **"Ömər ibn Hənzaladan,o da Əbu Abdullahdan rəvayyət edir ki,imamdan soruşdum: "Bizim əshamızdan iki nəfər bir borc vəya miras üstündə ixtilaf etsələr və nəticədə sultana vəya qaziyə hökm üçün getsələr,bu onlar üçün halal olarmı?..... Ravi dedi: "Əgər iki hakimin verdiyi hökm rəvayyət və raviləri etibarlı olan səbəblərə əsaslanırsa,onda nə etməli?**

**İmam buyurdu: "Bunlardan hansısı Kitaba,sünnətə uyğun,əimmə (sünnilər)-in fikirlərinə ziddirsə ona əsaslanılır. Ravi dedi: "Sənə fəda olum!Əgər hər iki hakim verdiyi hökmü Quran və sünnətə əsaslandırsalar və biz də rəvayyətlərdən birinin əimmənin görüşünə uyğun,digərinin isə ona zidd olduğunu görsək,bu rəvayyətlərdən hansını qəbul edək?**

**İmam buyurdu: "Əimmənin görüşünə zidd olan rəvayyəti əsas**

**alın.Çünki,uğur və qurtuluş ondadır. Ravi dedi: "Əgər hər iki rəvayyət də əimmədən olan iki dəstənin fikirlərinə uyğun isə,bunlardan hansı əsas alınmalıdır?"İmam dedi: "Onların hakimlərinin və qazilərinin hansı rəvayyətə meyl etdiklərinə baxılar və meyl etmədikləri rəvayyət əsas alınar."** ("Usul əl-kəfi" "Hədisdə ixtilaf" bölümü 1/68,hədis 10 (198)

Şeyx Səduq Əbu İshaq əl Ərcaninin Əbu Abdullahdan belə nəql etdiyini yazır: **"Əbu Abdullah buyurdu: "Bilirsənmi niyə sizə avamın etdiyininə müxalif olana əməl etməyiniz əmr edilib?" Mən dedim: "Biz bilmirik" İmam buyurdu: "Əli (r.a) dində hər hansı bir əməl edəndə ümmət mütləq ona müxalif olardı.Bununla onun əməllərini tutarsız və dəyərsiz etmək istəyirdilər.Onlar bilmədiklərini Əmirəl Mömünindən soruşardılar.İmam Əli nə fətva verirdisə,onlar insanları aldatmaqdan ötrü onun əksini edərdilər."** (Şeyx Səduq "İlyəluş şərai" səh 531 İran)

Ayətullah Muhsin əl Əmin "Əyanuş şia" (1/21,Beyrut,1986 il) adlı tanınmış əsərində yazır: **"Əshabımız Əhli Sünnə vəl camaat deyə adlandırılanlar üçün avam, özləri üçün isə həvas kəlməsini istifadə etmişdir."**

Şeyx Fəthullah Nəmazi əş Şirazi isə belə yazır: **"Avam təriqi ilə gələn hədisi Buxari,Muslim.... kimi bir çox mühəddislər rəvayyət etmişlər."** ("Qaidətu lə dərara və lə dırar" səh 21,Beyrut)

Xomeyni belə yazır: **"İxtilaflı məsələlərdə doğrunu bilməkdən ötrü, Əhli Sünnətə muxalifətçilik etməkdə heç bir işkal yoxdur."**("ər-Rəsail" 2/83)

Vəhdətdən danışan ustad Murtəza əl Əsgəri kitabında bu növ hədisləri qeyd etdikdən sonra yazır: **"Bu bəhsdə xatırlatdıqlarımıza görə bir-birinə zidd olan iki hədislə qarşılaşanda ,"Xəlifələr məktəbi"-nin istinad etdikləri hədis tərk edilir.Bu daha doğru rəydir."** ("Məalimu mədrəsəteyn" 3/269; "Məktəbətul fəqih"nəş.Kuveyt)

əl Əsqəri Əhli Sünnə üləmasına qarşı duyduğu kini üzə vuraraq yazır: **"Artıq gördük ki,"xəlifə məktəbi" alimləri İslamın ilk dövründə söz və qüdrət sahibi olan insanları tənqid edən rəvayyətlər və xəbərləri ixtisar etməkdə ittifaq etmişlərdir."** ("Məalimu mədrəsəteyn" 1/289)

Başqa yerdə yazır: **"Xəlifələr məktəbi"ndə gizlətmə növlərindən biri də səhih rəvayyətlər yerinə uydurma xəbərlərin yazılması və yayılmasıdır."** (həm.yer 1/263)

O,yazır: **"Gizlətmənin bu növü yəni,xəbərin heç bir yerdə qeyd edilmədən tamamilə gizlədilməsi "xəlifələr məktəbi"ndə tez-tez rast gəlinən bir haldır."** (həm.yer 1/254)

**"Qeyd etdiyimiz kimi "xəlifələr məktəbi" müsəlmanların üzünə Rəsulullah (s.a.s)-dən varid olan xəbərlərin qapısını bağladıqda,İsrailiyyətdən varid olan rəvayyətlərin qapısını eninə kimi açmışdı."** (həm.yer 2/48-49)

Şiələri Əhli Sünnətə müxalif olanları alma məsələsinə təşviq edən bir çox rəvayyətlər vardır.Hurr Amili "Vəsailuş şia" (18/85-86)-da,Ruhullah Musəvi Xomeyni "ər Rəsail" (2/81)-də,Muhəmməd Baqir əs Sadr "Təaridul şəriyyə" (səh 359)-da Muhəmməd Baqir ibn Abdullahdan imam Rzanın belə dediyini nəql etmişlər:
**"İmama iki ixtilaflı xəbər gəldiyində necə hərəkət etməliyik deyə sual verdik?" Dedi: "Sizə iki ixtilaflı və zidd olan xəbər gəldikdə,bunu avamın (Əhli Sünnət) rəvayyəti ilə tutuşdurun.Əgər bu onların xəbərlərinə müvafiqdirsə onu tərk edin,yox əgər onların xəbərlərinə ziddirsə,onu alın."**

Hurr Amili "əl Fusulul muhimmə fi mərifəti usulil əimmə"adlı kitabının 225-ci səhifəsində bu xəbərlərin mütəvatir səviyyəsində olduğunu qeyd edir.O,yazır: **"Bu baradə olan hədislər mütəvatirdir. "Vəsailuş şia"da bunların bir qismini qeyd etmişik."**
Hurr Amili "Vəsailuş-şiə" kitabında **"Əhli-sünnətə, onların yoluna müvafiq olan ilə əməl etməyin qadağan olunması"** adlı bir bölüm

açmış və həmin bölümdə "məsum"lardan çoxlu sayda hədis nəql etmişdir.

Yusif əl Bəhrani yazır: **"Rəvayyətin avamın məzhəbinə ərz edilib,daha sonra müxalif olanı alma baradə olan çoxlu sayda oxşar xəbərlər rəvayyət edilmişdir."** ("Hədaiq"1/95)

Hüseyn ibn Şihabuddin əl Kərki əl Amili yazır: **"Avamın işinin əsası zehnləri qarışdırmaq,haqqı batillə örtmək,batili haqq kimi qələmə verərək avamın və öz dinlərini zay etməkdir."** ("Hidayətul əbrar" səh 102)

Seyyid Nemətullah Cəzairi yazır: **"Bizim sünnilərlə Allah,peyğəmbər və imam məsələsində heç bir oxşar və bənzərliyimiz yoxdur.Çünki,onlar deyirlər ki,Allah peyğəmbəri Muhəmməd (s.a.s),xəlifəsi isə Əbu Bəkr olandır.Biz isə nə bu Allahı,nə də bu peyğəmbəri qəbul edirik.Biz deyirik: "Həqiqətən o Allah və peyğəmbər ki,peyğəmbər (s.a.s)-in xəlifəsi Əbu Bəkrin Allahı və peyğəmbəri olub,o bizim Allahımız və peyğəmbərimiz deyil."** ("Ənvərun Numaniyyə" c.2,səh 278 "İmamların dininin həqiqi nuru" fəsli)

## 12. Əhli Sünnəti aldatmaq üçün təqiyyə ilə yalandan and içmənin caizliyi.

Şiələrə görə hətta,and içməyə də təqiyyə daxil olmuşdur.
Şeyx Murtəza əl Ənsari "Risalətut təqiyyə" (səh 73)-də,əl Xoyi "Tənqih şərhul urvatul vuska" (4/278,307)-də imam Cəfərdən belə bir hədis nəql edirlər: **"Təqiyyə üçün nə etsəniz vəya təqiyyə ilə nə kimi andlar içərsinizsə,bu baradə bir genişliyə sahibsiniz."**

Onlara görə bu səhih rəvayyətə əsasən bir şiə sünnini aldatmaq üçün yalandan and içməkdən çəkinməz. Çünki,təqiyyə genişdir. Beləki,şeyx Murtəza əl Ənsari "Risalətut təqiyyə" (səh 72)-də imamdan belə rəvayyət nəql edir: **"Təqiyyə genişdir.Təqiyyə ilə edilən istənilən hər əmələ görə Allahın izni ilə əcr vardır."**

Şiələr məsləhət faktoru xaricində özlərinə müxalif olanlara mallarından xüms,zəkat və sədəqə verilməsini caiz hesab etmirlər. Əbul Qasim əl Xoyi xüms,zəkat,kəffarələr,fitr sədəqəsi kimi mallardan müxaliflərə verilməsi baradə suala belə cavab vermişdir: **"Caiz deyildir.Yalnız məsləhət halında caiz ola bilər."** ("Məsail","Rudud" 1/64; Qum)

## 13. Müsəlmanlara qarşı pis ifadələr sərf etmək və onları təhqir etmələri.

Rafizilər təkcə bu dünyada olan bütün insanları və şiə olmayan hər kəsi təhqir etməyiblər.Şiə hədislərinə görə dünyaya gələn hər körpə şeytanın əlinin altından keçir. Şiəliyin İslam ümmətini təhqir etməsinə dair misallardan biri olaraq,bunu göstərmək olar.

Kuleyni "Kafi"(c.8, səh 239,285)-də,Məclisi "Bihar" (24/311)-da,Hurr Amili "Vəsailuş şia" (c.16,səh 37,hədis 2910)-da Əbu Cəfər ibn Muhəmməd Baqirdən rəvayyət edirlər: **"Əbu Həmzə İmama dedi: "Bəzi yoldaşlarımız müxaliflərə böhtan atırlar." dedi.İmam ona dedi: "Sussan yaxşı olar.Allaha and olsun ki,bizim şiələrdən başqa bütün insanlar fahişə övladlarıdır."**

Əbu Abdullahdan: (Əbu Bəsirə dedi) "**Həqiqətən şeytan kişi qadına yaxınlaşdığı kimi yaxınlaşır, etdiyi kimi edir, cinsi əlaqədə olduğu kimi olur." (Ravi) dedim: "Bu nə ilə bilinir?" (İmam cavab verdi): "Bizə olan sevgi və nifrətlə. Kim bizi sevir qulun (sperması olur) kim nifrət edər (sperma şeytanın olar)"** ("Kafi" c.5, səh 502)

Eyni tipli rəvayyət "Vasailuş şia" (c.20, səh 135-136,hədis 25233)-da nəql olunur.

Haşim Bəhrani "Burhan" (2/300; Qum) təfsirində,Əyyaşi "Təfsir" (2/234; Beyrut)-də Meysəm ibn Yəhyadan o da imam Cəfər ibn Muhəmməddən belə nəql edir: **"Elə bir dünyaya gələn körpə yoxdur ki,onun doğulmasında cinlərdən olan şeytan iştirak etməsin.Əgər o bilsə ki,doğulan körpə bizim şiələrdəndir onda o onu tərk edər.Əgər**

**o bizim şiələrdən olmazsa, şeytan barmağını onun arxasına salar və onu qabağdan çıxardar.Əgər körpə qızdırsa onda şeytan barmağını onun fəcrinə salar və o fahişə olar.Məhz buna görə də körpə ana bətnindən çıxan zaman belə möhkəm ağlayır."**

Əli ibn Əsbat Əbu Abdullahdan nəql edir: **"Şübhəsiz ki,Allah-Təala ərəfa günü imam Hüseynin qəbrini ziyarət edənlərə nəzər edər.Ona dedim: "Vəqfəyə duranlardan öncə mi onlara baxar?Dedi: "Bəli."Sual etdim necə? Dedi: "Çünki,onların arasında zinadan əmələ gələnlər vardır.Bunlar isə belə deyillər."**
Bu rəvayyəti Məclisi "Biharul Ənvar" (101/85)-da "Ərəfa və bayram günlərində Rəsulullah (s.a.s)-i ziyarət etmənin fəziləti" babında, Şeyx Səduq isə "Mən lə yəhduruhul fəqih"(2/431)-də nəql etmişlər.

Əllamə Abdullah Şübbar "Təsliyətul fuad fi bəyanil məvt vəl məad" kitabında **"Şiələr xaricindəki insanlar analarının adları ilə çağrılacaqlar"** fəsli tərtib etmiş və bu fəsildə bəzi rəvayyətlər qeyd etmişdir.Bunlardan birində deyilir: **"…Qiyamət günü olduğu zaman şiələr xaricində olan insanlar analarının adları ilə çağrılacaqlar.Şiəmiz isə tər təmiz doğulduqlarından ötrü atalarının adları ilə çağrılacaqlar."** ("Təsliyətul fuad fi bəyanil mevt vəl məad"səh 162,"Darul aləmi" nəş.Beyrut)

**Məclisi "Biharul Ənvar" kitabında "torpaq,gil və nifaq" fəslində 67 rəvayyət nəql edir.**
Bu hədislərin birində deyilir: **"İmam dedi: "Ey İshaq! Sənin haradan gəlməyin baradə heç fikirləşmisənmi?**
**İshaq dedi: "Əgər siz bu baradə xəbər verməsəniz,mənim bu baradə elmim heç yoxdur."**
**İmam dedi: "Qulaq as İshaq.Allah məxluqatı xəlq etməmişdən öncə yerə yeddi gün yağış yağdırdı.Sonra yerin səthindən gili götürdü və ondan biz Əhli beyti yaratdı.Sonra O bu gilin aşağı hissəsindən bizim şiələrimizi xəlq etdi.Əgər bu gil başqa gillərlə qarışmasa idi bizim şiələr heç vaxt günah etməzdilər."**

Həmçinin, Kuleyni "Kafi"kitabında **"Möminin və kafirin gili,torpağı"**fəslində bu tip hədislər nəql edir.
Onlara görə şərəbxor şiə sünnidən yaxşıdır. Şeyx Səduq "Uynu əhbərul riza" kitabında (28/69) yazır ki,bir adam imama dedi: **"Mən öz qızımı qardaşım oğullarından birinə ərə vermişəm ki,o içir və tez-tez boşayacağı baradə qızımı təhdid edir."**
İmam dedi: **"Əgər o sənin şiə qardaşlarındandırsa bunun heç bir zərəri yoxdur.Yox əgər o digərlərindəndirsə (sünni) onu boşatdır."**